Taha Cabir əl-Ülvani

# İki "oxu"nun:

# VƏHYİN KAİNATLA VƏHDƏTİ



**Taha Cabir əl-Ülvani**

# İki "oxu"nun:

## VƏHYİN
## KAİNATLA
## VƏHDƏTİ

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

Bakı - 2017

© Beynəlxalq İslam Fikri İnstitutu, 2017
© "İdrak" İctimai Birliyi, 2017

The International Institute of Islamic Thought (IIIT)
500 Grove St., Suite 200, Herndon, VA 20170
www.iiit.org

The International Institute of Islamic Thought (IIIT) (UK)
P.O. Box 126, Richmond Surrey. TW9 2UD, United Kingdom
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Mirəli Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur

Digər nəşrlərimiz:

# Ön söz

Aləmlərin rəbbi Allaha həmd olsun! Ondan bağışlanma və hidayət diləyir, kömək istəyirik! Nəfsimizin şərindən, bəd əməllərimizdən Allaha sığınırıq! Allahın qulu və elçisi, dostu, yaratdıqlarının ən yaxşısı, böyüyümüz Məhəmmədə, pak ailəsinə, möhtərəm səhabələrinə, Qiyamətədək onun yolu ilə gedənlərə xeyir-dua və salam göndəririk.

Qurani-Kərim – bu ilahi kəlam Allah tərəfindən Etibarlı və Dürüst Peyğəmbərə aləmlərə xəbərdarlıq olsun deyə nazil edilmişdir.

Quran Aydınlaşdırıcı Nurdur, Müdrik Xatırladıcıdır, Əziz (möhtərəm) Kitabdır. Fitnələrdən xilas edən, könüllərə şəfa olan, sınaq və möhnətlərdən qoruyan Kitab!

“Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər, onları öz izni ilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!” (əl-Maidə, 16).

Quran doğruluğa yönəldir, sapqınlıqdan uzaqlaşdırır; heyrətamiz tərəfləri tükənməzdir; (iddialara) cavab verməkdən usanmır. Şərəfli Qurana qayıtmağın zəruriliyindən söz açan İmam Məhəmməd ibn İbrahim əl-Vəzir (vəfatı – hicri 840) deyirdi: “Oxşar digər variantları ilə qeyd edilən məşhur bir hədislə kifayətlənək. Bu hədisi “əl-Əmali” kitabında Seyyid İmam Əbu Talib, “Came” kitabında hədis alimi Hafiz Əbu İsa Tirmizi

rəvayət etmişlər. Hədisin ravisi Əlinin dostu Haris ibn Abdullah əl-Həməzanidir. Haris deyir:

"Məscidin yanından keçirdim. Bir də gördüm ki, insanların başı qızğın söhbətə qarışıb. Əlinin yanına daxil olub gördüklərimi ona xəbər verdim: "Ey Möminlərin əmiri, insanların başının boş söz-söhbətə qarışdığını görmürsənmi?" Soruşdu: "Onlar dediyin kimimi edirlər?" Dedim: "Bəli." Dedi: "Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* belə dediyini eşitmişəm: "Diqqətli olun! Fitnə-fəsad meydana çıxacaqdır." Sual etdim: "Ey Allahın rəsulu, bu fitnədən necə xilas olmaq mümkündür?" Dedi: "Allahın kitabı ilə! Onda sizdən əvvəlki və sonrakı (insanlar haqqında) xəbərlər, aranızda (veriləcək) hökm mövcuddur. O, qəti hökm olub, lağı-lağı deyildir. Kim yekəxanalıq edib ondan üz döndərərsə, Allah onun kələyini kəsər. Kim də doğru yolu ondan qeyrisində axtararsa, Allah onu zəlalətə salar. O, Allahın möhkəm ipidir. O, müdrik xatırladıcıdır. O, doğru yoldur. O elə bir kitabdır ki, arzular onunla azmır, dillər dolaşmır, alimlər də ondan doymur; hey təkrarlamaqla köhnəlmir, heyrətamiz tərəfləri bitib-tükənmir. Elə bir kitab ki, cinlər onu dinləyir-dinləməz demişdilər: "Biz çox qəribə (təsəvvür edilməz dərəcədə gözəl olan) bir Quran eşitdik. O, haqq yolu göstərir. Biz ona iman gətirdik və biz bir daha heç kəsi rəbbimizə şərik qoşmayacağıq"[1].Kim onu təsdiqləyərsə, doğru danışar. Kim ona əməl edərsə, savab qazanar. Kim onunla hökm kəsərsə, ədalətli

[1] "əl-Cinn" surəsi, 1-2-ci ayələr

hərəkət edər. Kim də ki ona çağırarsa, doğru yola istiqamətləndirilmiş olar".

Bu hədisi Seyyid İmam Əbu Talib həm də başqa istinadla – Muaz ibn Cəbələ istinadən özünün "Əmali" kitabında rəvayət etmişdir. Həmçinin digər alim – Əbu əs-Səadat ibn əl-Əsir özünün "Came əl-üsul" kitabında bu hədisi Ömər ibn əl-Xəttabdan rəvayət etmişdir.

Pak və Uca Allah kitabını yol və üsul olaraq nazil etmiş, onunla bizi zəlalətdən qurtarmış, aləmlərin üzünə rəhmət və hidayət qapılarını açmışdır. Yol göstərdiyi, nemətlər göndərib bizi qayğısı altına aldığı üçün Ona həmd olsun. Həmd olsun ki, Quranla bizi zəngin etmiş, başqa şeylərə möhtac buraxmamışdır:

"Məgər (müşriklərə) oxunmaqda olan Kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi? Həqiqətən, bunda iman gətirən bir tayfa üçün həm mərhəmət, həm də öyüd-nəsihət (ibrət) vardır!" (əl-Ənkəbut, 51).

Diləyimiz budur ki, Uca Allah Quranı könlümüzə sirdaş, gözümüzə nur etsin, bilmədiklərimizi ondan bizə öyrətsin, unutduqlarımızı onunla yadımıza salsın, onu əleyhimizə deyil, lehimizə dəlil qılsın, onunla bizi cənnətə yönəltsin! Həqiqətən də, O, duaları eşidən və qəbul edəndir.

## İki "oxu" əmri

Uca Allah vəhy başlandıqda peyğəmbərinə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* iki dəfə oxumağı əmr etmişdi. İlk nazil olmuş ayələrdə iki yerdə "oxu!" əmri mövcuddur:

“(Ya Peyğəmbər!) yoxdan yaradan rəbbinin adı ilə **oxu**!

O, insanı laxtalanmış qandan yaratdı.

(Ya Peyğəmbər!) **Oxu**! Sənin rəbbin ən böyük kərəm sahibidir!

O rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.

(O rəbbin ki) insana bilmədiklərini öyrətdi” (əl-Ələq, 1-5).

Qurani-Kərimdə təkrarlar və sinonimlər olmadığından, ayələrdə gücləndirici söz və cümlələrin işlədilməsinə lüzum qalmadığından ondakı hər bir söz – sinonim və təkrar kimi görünsə də, – müəyyən məna (məzmun) ifadə edir; bu və ya digər söz tələb olunan mənanı öz forması – maddi qabığı ilə ifadə etməsə də, "siyaq"[1] və "sibaq"[2] baxımından, işlədildiyi yer cəhətdən həmin mənaya dəlalət edir. Bütün bunlar Quranın bəşər kəlamından üstün olduğunu göstərən

---

[1] Quranda "siyaq" dedikdə məna yaradan, mənaya aparıb çıxaran kontekst başa düşülür. Bəlağət alimləri "siyaq" haqqında çox danışsalar da, onun hərtərəfli tərifini verməmişlər. Sanki onlar "siyaq"ı tərifi olmasa da, başa düşülən, dərk edilən məsələlərdən hesab etmişlər. Ya da ola bilər ki, onlar "siyaq" anlayışının təsviri ilə kifayətləndikləri üçün tərifinə lüzum görməmişlər. Üsulşünaslar isə bu məsələyə son dərəcə diqqət yetirmişlər. "Siyaq" bütövü (ümumini) izah etmək, ehtimal olunanı müəyyənləşdirmək, nəzərdə tutulmayan ehtimalları rədd etmək üçün yol göstərir. Çünki mətnlərin mənası iki növdür: həqiqi və izafi (əlavə, nisbi). Həqiqi məzmun danışanın məqsədi (niyyəti) və istəyi (iradəsi) ilə əlaqəlidir. Belə məna fikir ayrılığına səbəb olmayan mənadır. İzafi məna isə eşidənin fəhmi və düşüncəsi, istedadı, intellektinin itiliyi, sözləri və dərəcələrini bilmə səviyyəsi ilə əlaqəlidir. Bu məna eşidənlərin fərqliliyi səbəbindən müxtəliflik kəsb edir. Bax: İbn əl-Qəyyim. Bədai əl-fəvaid, X cild, səh. 914; İbn əl-Qəyyim. Elam əl-müvəqqəin, I cild, səh. 350-351; Rüqəyyə Taha Cabir əl-Ülvani. Əsər əl-ürf fi fəhm ən-nusus: qəzaya əl-mər`ət ənmuzəcən. Dəməşq, 2003, səh. 260-265; İbrahim Əsban. Dəlalət əs-siyaq fil-Quran (çapdadır).

[2] Sibaq "siyaq" anlayışı ilə əlaqəli olub, münasib məzmunun başa düşülməsində böyük əhəmiyyətə sahibdir. "Sibaq" sözlər, ayələr və surələrin əvvəlki söz, ayə və surələrlə əlaqəsini göstərir. O, əlaqəli "zəncir"də "halqa" rolunu oynayır.

arqumentlərdəndir. Odur ki bu beş ayədə iki dəfə işlədilmiş "oxu!" əmri bəzi təfsirçi alimlərin[1] iddia etdiyi kimi təkrar və ya sinonimlik demək deyildir; əksinə, bu, ayrı-ayrı mənalar daşıyan iki əmri ifadə edir. Hər ikisinin öz yeri, öz sahəsi, öz üslubu və xüsusiyyətləri vardır.

Bu fikri həm də o fakt qüvvətləndirir ki, birinci ayədəki "oxu" əmri "Allahın adı ilə" yanaşıdır. Ayədəki "hansı ki" aid əvəzliyi "yaratma" ilə əlaqələndirilib: "rəbbinin adı ilə oxu! O rəbbinin ki, hansı ki yaratmış-

---

[1] Məsələn, İmam Qürtubi ikinci "oxu" əmrini "qüvvətləndirmə" və birinci ayənin ardı hesab etmişdir (20/119). Təbərinin ikinci "oxu" əmrinin adını çəkməməyi göstərir ki, o, bunu ya sinonim, ya da qüvvətləndirici vasitə olaraq qəbul etmişdir (39/253). İmam Fəxrəddin Razi hər bir felə ayrı-ayrı məna vermişdir: "Birinci, özün üçün oxu! İkincisi isə təbliğ (çatdırma) üçün oxu! Və ya birinci "oxu!" Cəbrayıldan öyrənmək, ikincisi isə öyrətmək üçündür... Yaxud namazında oxu, daha sonra namazından kənarda oxu!" (31/16). Bəğəvi öz təfsir kitabında demişdir: "Oxu! Qüvvətləndirmə üçün onu təkrar et, sonra yenidən başla. ...və sənin rəbbin kərəm sahibidir" (8/479). İbn Kəsir birinci və ikinci "oxu" əmrləri haqqında heç nə deməmişdir (8/459). İbn Cövziyə görə, bu iki "oxu" ayələrdə qüvvətləndirmə üslubuna xidmət edir. İbn Aşura gəlincə, "ət-Təhrir vət-tənvir" kitabında yazır ki, "rəbbinin adı ilə" ayəsindəki "bi" (ilə) ön qoşması müşayiət üslubuna xidmət edir. Yəni, sənə vəhy olunanı rəbbinin adını oxumaqla oxu. Rəbbin adını oxumaq onun böyüklüyünü qavramağı təmin edəcəkdir. Bu yanaşma bizim mövqeyimizə ən yaxın olanıdır. Tusi həmin ön qoşmanı "artıq" hesab etmişdir: rəbbinin adını oxu! İkinci "oxu"nun tamamlığı isə Qurandır (10/379).

dır. Hansı ki insanı laxtalanmış qandan yaratmışdır"[1]. Bu əmrdə Allahdan kömək diləyərək oxumaq ifadə olunub. O Allahdan ki, sənin rəbbindir və Ona məlumdur ki:

"Sən bundan (bu Qurandan) əvvəl nə bir kitab oxumuşsan, nə də onu sağ əlinlə yazmışsan..." (əl-Ənkəbut, 48).

Bu üzdən O, "sənə (Quranı) oxudacaq və sən (onu) unutmayacaqsan". Unutmağa və ya yanılmağa məhkum istənilən digər oxuyanın əksinə olaraq! Elə isə Onu adı ilə oxu, qovulmuş şeytandan Ona pənah apar:

"(Ya rəsulum!) Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın! ("Əuzu billahi minəş-şeytanır-rəcim" sözlərini de!)" (ən-Nəhl, 98).

O Allah ki, səni və bütün insanları laxtalanmış qandan yaratmışdır; o Allah ki, əvvəllər oxuyan olmasan da, səndə oxuma işini ərsəyə gətirəcəkdir. Sənin oxumalı olduğun şey sənə vəhy etdiyimiz Qurandır. Səni yaradan, himayə edən, qan parçasından xəlq edən Allah Adəmə bütün adları öyrətdiyi kimi, atan İbrahimə və digər peyğəmbərlərə təlim verdiyi kimi sənə də oxumağı öyrədəcəkdir. Elə isə Onun adı ilə, Onunla birlikdə, Onun adı üzrə oxu!

Təbii ki, bu ayələrdə Peyğəmbərə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* bildirilir ki, Lat, Üzza və Mənatdan kömək istəyərək bir işə başlayan xalqından ayrı dursun. Lat, Üzza və Mənat ərəbləri deyil, ərəblər onları yaratmışlar.

[1] Oxucuya mətləbin aydın olmağı üçün yuxarıdakı ayələrin hərfi tərcüməsini vermişik – ***tərcüməçinin qeydi.***

Həmçinin "...yaratmışdır. İnsanı qan laxtasından yaratmışdır" ayəsində yaradılışı "oxumağ"ın vacibliyinə işarə vardır. Özü də bu işə insanı "oxumaq"la başlamağın vacibliyinə eyham vurulur. İnsanı yaradılışının əvvəlindən ölümünədək – həyatın bütün mərhələləri üzrə "oxumaq", yəni araşdırmaq, öyrənmək lazımdır. Deməli, məxluqatı "oxumaq" üsulu insanı "oxumaq"dan başlanır, kainat və kosmosa uzanır. Məhz bu, sağlam metodoloji "oxuma"dır.

Üluhiyyət[1] deyil, rübubiyyət[2] tövhidi ilə "oxumağ"a başlamaq özündə fərqli metodoloji addımı ehtiva edir; bu, konkretdən mücərrədə getməkdir. Çünki insan oğlu mücərrədlə müqayisədə konkret olanı müşahidə və dərk etməyə daha çox qadirdir. Məxluqat, ondakı yaradılış mükəmməlliyi, sistem və qanunlar, qanunauyğunluqlar konkretdir, görünəndir, idrak vasitələri ilə dərk olunandır. Mücərrəd olan isə tövhidin növləridir; konkret olan haqqında obyektiv düşünməklə, düzgün mühakimə yürütməklə mücərrəd olana yetişmək mümkündür[3]. Konkreti dərk son deyildir; əksinə, mücərrədi dərkin başlanğıcıdır. Bu məqamda insan oğlu real aləmdə qeybin "fəaliyyət"ini dərk edir, qeybin bütün elementləri, insan və kainat arasındakı əlaqəni üzə çıxarır.

---

[1] İlah, tanrı olaraq Allahın seçilməsi; ancaq Allahın ilah olduğunu qəbul etmək – ***tərcüməçinin qeydi.***

[2] Hər şeyin sahibinin, hər şeyi yaradanın Allah olduğunu qəbul etmək – ***tərcüməçinin qeydi.***

[3] Yəni, məxluqat haqqında düşünmək, məxluqatı obyektiv şəkildə öyrənmək bizdə Allahın mövcudluğu qənaətini formalaşdıracaqdır – ***tərcüməçinin qeydi.***

## *Birinci "oxu"*

Deməli, "oxumağ"a dair ilk əmr vəhyi Allahın adı ilə və ya Onun adı üzrə, yaxud Onun adı ilə birlikdə "oxumaq" əmridir. O vəhyi ki, ayələr müfəssəl kitaba çevrilənədək ardı-arda göndərilmişdir. O vəhyi ki, ey Məhəmməd, onu insanlara oxumalısan, hikməti və hidayəti öyrənsinlər deyə onu onlara izah etməlisən. İzah etməlisən ki, nəfslərini paklayasan, həyatlarına saflıq bəxş edəsən. Beləliklə, onlar varislik vəzifəsini icra etmək, əmanətə sahib çıxıb yer üzünü abadlaşdırmaq üçün Quran vasitəsilə doğru yolu tapacaqlar.

Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* oxuya bilmədiyini bildirdikdə, heç şübhəsiz ki, ondan tələb olunanı başa düşmüşdü, – ondan ona imla olunan şeyi oxumaq tələb edilirdi. O isə oxumağı və yazmağı bacarmırdı; oxuyacağı şeyə dair biliklərə sahib deyildi. Buna görə də Allah Təala ondan "rəbbinin adı ilə" oxumağı istəmişdi. Sanki Allah ona belə demək istəyirdi: "Sən bilmədiyin bu işi etməkdə tək olmayacaqsan; əksinə, sənə çox şeyi bəxş etmiş rəbbin səninlə olacaqdır və O, sənə əmr etdiyi şeyi necə yerinə yetirməyini öyrədəcəkdir. Axı O bundan əvvəl Adəmə bütün adları öyrətmiş, səndən əvvəlki peyğəmbərlərə: İbrahimə, Musaya, İsaya *(Onlara salam olsun!)* bilik bəxş etmişdir. Əgər Onun adı ilə oxusan, oxumaq üçün Ondan kömək istəsən, vəhyi izah edib öyrətmədə, insanlara bir dəlil olaraq çatdırmada sənə kömək edəcək, səninlə olacaqdır".

Allah yuxarıdakı ayələrdə insanın adını çəkir, onu xəlq etməsindən söz açır. Bu ayələr Peyğəmbəri *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* arxayın salır ki, ona oxumaq bacarığını bəxş etmək hər şeyi yaradan, insanı da laxtalanmış qandan xəlq edən rəbbinə çətin deyildir; əksinə, bu Onun üçün asan işdir.

Allah insandan (məxluqatdan) söz açmaqla Peyğəmbəri ikinci "oxu"nu qavramağa hazırlayırdı.

## *İkinci "oxu"*

Bu, kainatı "oxumaq"dır, məxluqata nəzər salmaqdır, bəşəriyyətin ətraf aləmə dair yazıya köçürdüklərini, təcrübələrini öyrənməkdir. Quran bu "oxuma"nı ilahi yaradılmanı isbatlayan dəlil adlandırır, varlıq aləmi, keçmiş xalqlar və başlarına gələn hadisələr haqqında rasional düşünmə tapşırığı olaraq nəzərdən keçirir.

Beləliklə, əmr edilmiş "oxu" ikidir: a) kitabında Allahın adı ilə oxumaq; b) kainatı, məxluqatı, varlıq aləmi ilə əlaqəli hər şeyi, xalqların yazıya köçürülmüş elmi-mədəni irsini və sairi oxumaq.

Bu iki "oxu" ilə, vəhydən istifadə edib onu əsas götürən xalqları vəhyə etinasız yanaşıb kainat və təbiəti vəhyin yolgöstərənliyi olmadan öyrənən, yaxud Peyğəmbərə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* nazil olmuş vəhyi oxumaqla vəzifənin bitdiyini düşünüb dünyaya, bəşəri təcrübəyə əhəmiyyət verməyən xalqlardan fərqləndirmək mümkün olacaqdır.

Kim vəhyi düşünərək və dəqiqliklə "oxumaq" istəyirsə, dünyanı və dünyadakıları "oxumalı"dır. Bunun üçün keç-

miş xalqların təcrübələrini, itib-batmış mədəniyyətləri, yaranma, parlama və tənəzzül səbəblərini öyrənmək lazım gələcəkdir.

Quranda bu məsələyə əhəmiyyətli dərəcədə yer verilib, bir çox surə və ayədə bu barədə danışılıb. Çünki bu məsələdə sonradan gələnlərin öyrənəcəkləri çoxlu şey vardır. Yəni, əvvəlkilər aralarında nə qədər çox zaman kəsimi olsa da, sonrakılara mesaj ötürür, sonrakılar da əvvəlkilərin başına gələnləri görüb öyrənmiş olurlar; dərk edirlər ki, əvvəlkilərin əməlləri nə ilə nəticələnibsə, onların da oxşar əməlləri eyni şeylə nəticələnəcəkdir: xeyir – xeyir, şər də şər doğurur. Burada "fərdi məsuliyyət və kollektiv nəticə" prinsipi işləyir. İnsan bu yolla davranış və əməllərinə nəzarət etməyi öyrənir, özünü əqlən "mükafat, cəza və savab" prinsipinin qəbuluna hazırlayır; atalarından ötürülənlərə tənqidlə yanaşmağı, beləliklə, "əcdad kultu"nun hegemonluğundan, onu kor-koranə təqlid etməkdən xilas olmağın yollarını öyrənir; onu da dərk edir ki, keçmiş xalqlara öz qazandıqları, bizə də öz qazandıqlarımız qalacaqdır; Allah qatında hər kəs etdiyinə görə cavab verəcəkdir.

## *İki "kitab"ı oxuma*

Deməli, söhbət savadsızlığın bütün formalarından xilas olmaq üçün oxunması lazım sayılan iki "kitab"dan gedir: nazil edilən möcüzəli kitab – Qurani-Kərim və yaradılmış "kitab" – kainat, məxluqat və bəşəri təcrübə.

Sonuncuya insanın özünə münasibəti də daxildir. Çünki insan məxluqatdan biridir, təbiətin qanuni oğludur:

"Sizi də ondan (o torpaqdan) yaratdıq. Sizi (öləndən sonra) ora qaytaracaq və (qiyamət günü) bir daha oradan (dirildib) çıxardacağıq" (Taha, 55).

## *"Oxumaq" insana aid məsələdir*

"Oxumaq" insana aid məsələdir. İnsan oğlu hər iki "oxu"ya əməl etməlidir ki, lazımi biliklərə sahib olsun. Bu biliklər ona varislik vəzifəsini icra etməyə, əmanətə sahib çıxmağa, abadlaşdırma işini aparmağa imkan verəcəkdir. Bu biliklər təkcə təlqin yolu ilə kəsb edilmir; həm də bu bilikləri əvvəlki və sonrakılardan, müraciət və mütaliə yolu ilə, mənbələri qiraətlə, təcrübə və bilik mübadiləsi ilə, istənilən mənbədən informasiya əldə etməklə, metodoloji üsulla qazanmaq lazımdır.

## *Bəşəriyyətin birliyi*

Ayələrdə bəşəriyyətin birliyinə, sonrakıların əvvəlkilərin bilik və təcrübəsindən istifadə etmələrinin zəruriliyinə, vasitəsilə Allahın yazmağı öyrətdiyi və bilik qazanmaq, mübadilə etmək, ötürmək və inkişaf etdirmək vasitələrindən biri olaraq müəyyənləşdirdiyi qələmdən istifadəyə işarə vardır. Bundan sonra Allahın insana ağıllara qığılcım olan bilikləri öyrətməsi faktı diqqətə çatdırılır: "İnsana bilmədiklərini öyrətdi" (əl-Ələq, 5).

Deməli, biliklərin iki mənbəyi vardır, – biz onların bir-biri ilə əlaqəli olduğunu qeyd etməkdən əsla usanmayacağıq. Bu mənbələr insan oğlunu mədəni şahidlik, abadlaşdırma və varislik vəzifələrini icra etmək üçün lazımi biliklərlə təmin edir. İnsan oğlu bu iki mənbəni vəhdətdə götürməli, onlardan hər hansı birinə laqeyd yanaşmamalıdır. Belə olduqda, həm Qurani-Kərimi, ondakı məxluqatla əlaqəli mənaları, ontoloji qanunauyğunluqları və qanunları, həm də kainatı dərk edəcək, orada varislik və abadlaşdırma vəzifəsini icra etmək üçün düzgün yolu tapacaqdır.

Hər iki mənbəni birlikdə "oxumaq", hər iki "oxu!" əmrinə eyni vaxtda əməl etmək lazımdır.

Vəhyi "oxumaq" – Allahın məxluqatı nə üçün yaratdığını, varlıq aləminin hərəkət qanunauyğunluqlarını, yol və şəriəti, bəşəriyyətin möhtac olduğu əsas anlayışları izah edən Qurani-Kərimi oxumaqdır.

Varlıq aləmini "oxumaq" – kainat və insanı, onları yaxşılaşdıran və korlayan hər şeyi, fitrəti və onu inkişaf etdirən və ya alçaldan hər şeyi oxumaq deməkdir.

## "Oxuma" səhvləri və mənfi nəticələri

Məlum oldu ki, vəhyi və varlıq aləmini "oxumaq" vacibdir. Çünki bunu Allah əmr edir. Hər iki "oxu"nu vəhdətdə götürmək lazımdır; bu və ya digəri olmazsa, pozuqluq meydana çıxacaqdır.

## *Birinci "oxu"ya etinasız münasibət*

Kim peyğəmbərlərə göndərilmiş vəhyi – ilk "oxu"nu bir kənara atıb, özünü ikinci oxuya – təbiəti və kainatı Allahsız ötüşərək öyrənməyə həsr edərsə, Allahla əlaqəsi kəsilər, qeybə etinasız yanaşar, Allahdan qopuq pozitivist bəşər fəlsəfəsini mənimsəyər, mənşəyindən uzaqlaşar, insan və təbiəti mütləq şəkildə eyniləşdirməyə cəhd göstərər, Yaradan və qeybi mövhumat və ya əhəmiyyətsiz metafizika hesab edər. Və ya iddia olunar ki, gizli yaradıcı güc mövcud olsa da, materiyanı birinci dəfə xəlq etdikdən sonra kainatı öz-özünə aktiv şəkildə davam etməsi üçün tərk etmişdir. Belə bir iddia ilə keçmişdə Aristotel, yeni dövrdə isə Nyuton və başqaları çıxış etmişlər.

Bəzi filosoflara Allahın adını çəkmək lazım gəldikdə Onu panteizm nöqteyi-nəzərindən təsvir edirlər; onların iddiasına görə, Uca Allah təbiət qüvvələrində təcəssüm etmiş, varlıqlarda "ərimişdir".

Dialektik materializm isə Yaradıcının mövcudluğunu bütünlükdə inkar etmiş, mürəkkəb maddi inkişafın xassələrindən söz açaraq inkişaf istiqamətlərini Allaha alternativ olaraq irəli sürmüşdür. Məqsəd bu idi ki, insan özünü təbiətdən əmələ gələn varlıq olaraq hiss etsin.

Bu yerdə insan oğlu özündə Allaha ehtiyacın qalmadığını hiss etməyə başlayır, çünki gözünü açıb qarşısında təbiəti görmüşdür; təbiət hər şeydir, təbiət hər şeyin səbəbidir, insan elm vasitəsilə təbiətə qalib gəlməyə

qadirdir; o, kainatın Allahın qanunlarına tabe edildiyini dərk etmir, əksinə, elə düşünür ki, kainat öz-özünə mövcuddur; o bu cür düşündüyü üçün hiss etmir ki, Allah kainatı onun ixtiyarına verib, onun və kainatın yaradıcısı məhz Odur; əksinə, özünü yaradıcı hesab edir, müxtəlif bacarıqlara sahib olduğunu hey gözə soxur, təbiəti ram etməyindən dəm vurur, torpağın bağrında gizlin olanları (təbii sərvətləri – ***mütərcim***) aşkara çıxarmağından fəxrlə danışır. Təbii ki, bu vəziyyəti səhv dünyagörüşü, yanlış yanaşma tərzi meydana çıxarmışdır. Varlıqlar aləmi insanın tabeliyinə verilmişdir. Allah insan oğlunu lazımi əqli və elmi bacarıqlara təmin edib ki, təbiəti özünə ram edərək, yer üzündə varislik vəzifəsinə yerinə yetirə bilsin. Amma insan qəflətə düşüb Allahı xatırlamaqdan uzaqlaşarsa, kainat və təbiətdə Onun qüdrətini görməzsə, heç nəyə möhtac olmamaq şüuruna qapılacaqdır. Bacarıqlı və yaradıcı olmaq istəyi insanı ətraf aləmlə mübarizəyə, hər şeyi hakimiyyəti altına almağa sövq edir, beləliklə, o, yer üzünün varisi olduğunu unudur, yolgöstərən kompasdan məhrum olur; təbiətlə insanın dostyana münasibəti keçmişdə qalır; insan yaradıldığını, bütün kainatın ona əmanət edildiyini, varis olduğunu, məxluqatın onun tabeliyinə verildiyini unudur, əmanətin ona verildiyini, varisliyin ona keçdiyini yadından çıxarır. Halbuki onu Allah yaratmış, ondan Özünə ibadət etməyi istəmişdir:

"Halbuki sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır!" (əs-Saffat, 96).

Elə ki insan həqiqəti unutdu, ətraf aləmə bir-biri ilə didişən qüvvələrin yaşadığı yer kimi baxacaq, özünü el-

minin sayəsində hər şeyə hakim olmuş ilah sanacaqdır; özünü öyəcək, nəfsini tanrı tutacaqdır; belə bir xəyala düşəcəkdir ki, dəyərini özündən və təbiətdən alır; din və iman – onun nəfsidir. Bu yerdə ilahi kəlam necə də məqamına çəkir:

"Xeyr, insan azğınlıq edər, Özünün dövlətli olduğunu gördüyü üçün!" (əl-Ələq, 6-7).

Belə olduqda insan başqa insanlara qarşı müstəbidləşir, azğınlıq edir; insanların etdikləri üzündən təbii fəlakətlər meydana çıxır, ətraf mühitin çirklənməsi baş verir, quruda, hava və suda pozulma özünü göstərir, ekoloji tarazlıq pozulur, əxlaqsızlıq hər yeri bürüyür, bir qitədə aclıq, digərində xarabazarlıq, başqa birisində isə xəstəliklər, cinayətlər baş alıb gedir; güzəran daralır:

"Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!" (Taha, 124).

Allahsız insanlar özlərini inandırırlar ki, baş verənlər təbii "vergilər"i xatırladır. Mədəniyyət "meyvələr"indən həzz almaq istəyənlər bu vergilərə dözməli, onları nə olursa-olsun ödəməlidirlər. Amma bu özü-özünü aldatmaqdır, söz oyunudur. Rəbbani həyatı haqq, xeyir və gözəllik dəyərləri idarə edir; yan təsirlər özünü göstərərsə, ancaq Allahın müvəffəqiyyəti və yolgöstərənliyi ilə bu təsirləri və mənfi nəticələrini aradan qaldırmaq mümkündür. Çünki yol göstərilmiş həyat ilahi mənşəlilikdən qopa bilməz.

## *İkinci "oxu"ya etinasız münasibət*

İkinci "oxu"ya, yəni məxluqatı, təbiəti öyrənməyə laqeydlik göstərmək, ətraf aləmdən qoparaqə birinci "oxu" ilə – vəhylə kifayətlənmək dünyadan təcridə, onun və ondakıların əhəmiyyətsiz hesab edilməsinə səbəb olur, insan oğlunun sosial və mədəni bacarıqlarını iflic edir, varislik və abadlaşdırma vəzifələrini icrada onu ətalətə salır, onunla ona ram edilmiş kainatın (təbiətin) arasına girir, düşüncələrini kütləşdirir, fəaliyyətinin dəyərini azaldır, bəlkə də, onun öz fəaliyyətini dərk etməsini əngəlləyir. Bununla da, insan oğlu özünü nədəsə aktiv tərəf kimi görmür, həyatdakı mövcudluğunda sosial-mədəni məna axtarmır. Təbii ki, bütün bunlar Quranın mahiyyətinə, ondakı üsul və metoda ziddir.

Kainatı öyrənməmək, yaxud bu işə etinasız yanaşmaq, ya da onu vəhy ilə vəhdətdə götürməmək mədəni acizlik yaradır, insandakı enerjini heç edir, real aləmlə axirət dünyası problemlərinin əcaib şəkildə qarışıq salınması ilə nəticələnir.

Birinci "oxu" – vəhyi oxumaqla kifayətlənənlər elə güman edirlər ki, Allahı uca tutmaq üçün bəşəri fəaliyyəti dəyərsiz hesab etmək, insanın iradə və ixtiyarının üstündən xətt çəkmək, rolunu heç saymaq lazımdır; insan razılaşmalıdır ki, heç nədə iradə sahibi deyildir. Bununla da, onun abadlaşdırma və varislikdəki rolu bitmiş olur; bacarıqları mütləq acizliyin qurbanına çevrilir; ola bilsin ki, belə insan haram işlərə batsa da,

iradəsiz olduğu üçün bu işdə günahının olmadığını iddia edir[1], – bu ki müşriklərin xüsusiyyətlərindəndir.

Kim klassik mənbələrə, müsəlman məzhəbləri kitablarına nəzər salarsa, Allahın əməli və insanın əməli, iradə, seçim, səbəb və nəticə məsələlərinin əcaib şəkildə dolaşıq salındığının şahidi olacaqdır. Belə bir dolaşıqlıq müsəlman bilik sistemində çoxlu təhrif və qaranlıq məqamların yaranmasına səbəb olmuşdur.

Elə isə iki "oxu"nu vəhdətdə götürmək, yəni vəhy və məxluqatı bir bütün olaraq öyrənmək, düşüncəni onlarla formalaşdırmaq lazımdır. Lazımdır ki, insan oğlu onlardan biri ilə kifayətlənib səhvə yol verməsin.

## Quranın bilik metodologiyası

"Quranın bilik metodologiyası"[2] adlandırdığımız şey iki "oxu"nun vəhdətdə götürülməsində əsas rol oynayır.

---

[1] Burada aşağıdakı Quran ayəsinə işarə olunur: "Müşriklər belə deyəcəklər: "Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız müşrik olar və nə də biz bir şeyi haram edə bilərdik. Onlardan əvvəlkilər də (öz peyğəmbərlərini) belə təkzib etmişdilər. Nəhayət, əzabımızı daddılar. (Onlara) de: "Bizim qarşımıza çıxara biləcək bir elminiz varmı? Siz yalnız zənnə qapılır və yalan uydurursunuz!" (əl-Ənam, 148).

[2] Biz "Quranın bilik metodologiyası" dedikdə Quranın bizə təqdim etdiyi parametr və qanunların əmələ gətirdiyi metodologiyanı nəzərdə tuturuq. Bu parametr və qanunları Quran ayələrini diqqətlə, düşünərək, təhlil edərək öyrənməklə təsis etmək mümkündür. Bundan sonra bu müəyyənedicilər əsasında koqnitiv addımlarımızı tənzimləyən təsdiq və üstünlük meyarları təsis edə bilərik. Koqnitiv addımlarımıza daxildir: elmi metodologiyanın təshihi, təbiət və ictimai elmlər fəlsəfəsinin

Bu metodologiya bir zərurətdir; təkcə müsəlmanları deyil, həm də bütün bəşəriyyəti müasir bilik çıxmazından[1], ümumdünya düşüncə böhranından[2] xilas edə bilər. Düşüncədə metodoloji ölçünün əsasını qoyduqdan sonra Qərb mədəniyyəti və məfkurəsi həm özü, həm də bilik sistemi üçün metodoloji forma müəyyənləşdirmək problemi ilə üz-üzə gəldi. Özü də elə bir metodoloji forma ki, Qərbin elmi inkişafına bütün tərəfləri ilə istinad edəcəkdi. Amma Qərbdə bu problemi hələ də qənaətbəxş şəkildə həll edə bilməyiblər.

Marksizm dialektik materializm çərçivəsində bu formanı tapmağa cəhd göstərmişdi. Amma Sovet İttifaqının yıxılması ilə marksizm də süquta uğradı və Qərb yenə də özünə koqnitiv-metodoloji alternativ tapa bilmədi. Qərb mədəniyyəti tənzimləyici, inkişaf problemlərini dərk edən, bu günün alimlərinin yayındığı "taleyüklü suallar"a cavab verməyə qadir alternativ fəlsəfi forma tapa bilmədi ki bilmədi. Bundan sonra Qərb mədəniyyəti öz hakimiyyətini qoruyub saxlamaq üçün böhranlar yaratmağa başladı. Bu böhranlar Qərb

---

mövcud dar çərçivədən çıxarılması. Başlıca müəyyənedicilər dedikdə "iki "oxu"nu vəhdətdə götürmə", "Quranın struktur (məzmun) bütövlüyü" və s. nəzərdə tutulur.

[1] Bu böhran metod və biliklərin eyni səviyyədə korlanmasına səbəb olur. Metodologiya, təbiət və ictimai elmlər fəlsəfəsi böhranı alimləri narahat etməyə başlamışdır.

[2] Düşüncə və ya ideoloji böhran əhəmiyyətli dərəcədə böyümüş, bəşəri metodlarla aradan qaldırılmayacaq səviyyəyə çatmışdır. Bu hal müasir dünyada baş verənləri müşahidə edənlərə yaxşı tanışdır.

mədəniyyətini parçalanmadan qoruyan ən mühüm vasitələrdən birinə çevrildi.

Bizə – biz ərəblərə və müsəlmanlara gəlincə, böhranımız daha dərin və məyusedicidir. Bir tərəfdən, biz də ümumdünya böhranına ortağıq. Çünki onunla əlaqəmiz, bəzilərinin iddia etdiyi kimi, kənar və ya künc əlaqə deyildir; modern mədəniyyət ideoloji, mədəni, metodoloji və təşkilati qəsbkarlığı sayəsində ontologiya və kainatda hərəkətliliyə dair öz metodologiyasını, öz konseptual-elmi dünyagörüşünü bizə və bütün dünyaya qəbul etdirib; tarixə, elmə, biliyə, mədəniyyət və sivilizasiyaya, inkişaf və geriliyə dair əsas anlayışları dünyaya Qərb ixrac edir. Elə isə həm bəşəriyyətin, həm də özümüzün bilik və düşüncə böhranını aradan qaldırmaq üçün təklif etdiyimiz "Quran metodologiyası" nədən ibarətdir?

## *Müəyyənedicilər və parametrlər*

Quranın bilik metodologiyasının parametrləri iki "kitab"ı: Quran və kainatı "oxumaq" yolu ilə, hər iki "kitab"ı vəhdətdə götürməklə müəyyən edilir.

**Birinci "kitab"**: söhbət yazılı (oxunan) vəhy kitabından – Qurandan gedir. Çünki o, kainatın mövcudluğu və hərəkətinə uyğun gələn, onları mövcud meyarları ilə birlikdə qavrayan yeganə kitabdır.

**İkinci "kitab"**. Bu, varlıq aləminin bütün təzahürlərini əhatə edən səyyar kainat kitabıdır.

Quran və kainat bir-birinə dəlalət edir, bir-birinə yol göstərir, bir-birinin qayda-qanunlarından xəbər ve-

rir. Quran kainata açılır, orada yol göstərməklə öz rolunu icra edir, ona bir çox funksiya yükləyir. Yükləyir ki, onu insanın ixtiyarına versin, problemlərini izah etsin. Kainat da Qurana açılır, ona suallarını ünvanlayır, insan oğluna onunla necə davranmağı öyrətmək üçün ondan kömək istəyir. Bunu bilib dərk etmək və şərtlərinə uyğun fəaliyyət göstərmək "iki "oxu"nu vəhdətdə götürmək" adlanır: vəhy çərçivəsində meydana çıxıb kainata sarı yönələn və **"qeybin oxunması"** adlanan birinci "oxu"; kainatdan başlanıb vəhyə istiqamət götürən və "**obyektivliyin (reallığın) oxunması**" adlanan ikinci "oxu".

Vəhyi "oxumaq" bütövdən (universal) hissəyə enmək kimidir. İnsan oğlunun nisbi bacarıqları vəhyi nə qədər başa düşsə, bu "oxu"nu bir o qədər dərk edib qavrayacaqdır.

Kainatı "oxumaq" isə ayrı-ayrı problemlər, sual və məsələlər təqdim edir, onları vəhyin hüzuruna daşıyır. Daşıyır ki, hər iki "kitab"ı "oxuyan" insan doğru cavablar tapsın. Belə olduqda "oxuyan" insan hər iki mənbə: vəhy və kainat arasında dialektik əlaqəni kəşf edir. Bu əlaqə həm də qarşılıqlı fəhm, dialektika və qarşılıqlı təsir əlaqəsidir.

## Sünnəni oxuma rolu

Sünnə və Sirəti[1] bütöv prinsipləri əsasında öyrənmək çox vacibdir. Kainatı "oxumaq" hissədən bütövə doğru yüksəlmək deməkdir. Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-*

[1] Peyğəmbərin həyatı – ***tərcüməçinin qeydi.***

*duası və salamı olsun!)* vəhyi tətbiq təcrübəsini insan oğlunun nisbi idrak bacarığı ilə "oxumaq" mümkündür. Çünki insan təzahürləri öyrənir. Bu çərçivədə Sünnə və Sirət dəqiq şəkildə başa düşülərsə, vəhyin təqdim etdiyi məlumatlarla pozitivist biliklərin nəticələri arasında iddia edildiyi kimi uçuruma rast gəlinməyəcəkdir.

Sünnə və Sirəti bütöv prinsipləri əsasında öyrənmək və Qurani-Kərimlə vəhdətdə götürməklə yanaşı, bilməliyik ki, Quran Ruhuləmin[1] ilə Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* könlünə nazil edilmişdir:

"Şübhəsiz ki, bu (Quran) aləmlərin rəbbi tərəfindən nazil edilmişdir!

Onu Cəbrayıl (Ruhuləmin) endirdi:

(Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi);

Özü də açıq-aydın ərəb dilinə" (əş-Şüəra, 192-195).

Quran qəlbə nazil edilmişdi. Odur ki əvvəl-əvvəl Peyğəmbərə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* onu əzbərləmək üçün dilini tərpətmək qadağan edilmişdi:

"(Ya Peyğəmbər! Cəbrayıl sənə Quran oxuduğu zaman) onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə! (Sən də onunla birlikdə Quranı təkrar etmə, yalnız dinlə!)

Çünki onu (sənin qəlbində) cəm etmək, (dilində) oxutmaq Bizə aiddir.

Biz onu oxuduğumuz zaman oxunmasını diqqətlə dinlə" (əl-Qiyamət, 16-18).

[1] Mələk Cəbrayıl nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

Qəlbə nazil olan şey başa düşmək, düşünmək və qavramaq üçündür. Bu səbəbdən Quranı oxuyan şəxs oxuduğunu başa düşmək, ondakı məzmunu qavrayıb, mətləblərə vaqif olmaq istəyirsə, onu qəlbinə sirayət etdirməli, mənasını bəsirət gözü ilə dərk etməyə çalışmalıdır.

Layiqli şəkildə oxumaq istəyən şəxs Quranın geniş dünyasına qədəm basmalı, özü də bu vaxt yəqinliklə əmin olmalıdır ki, ayələri qəlbinə sirayət etdirərsə, layiqi ilə oxuyarsa, üzərində düşünərsə, bu kitabda istədiyini tapacaqdır.

Qurandan bir surə, bir ayə oxuyan şəxs onun geniş üfüqlərində öz bəsirəti üçün furqan pəncərəsi açacaqdır. Kim də ki onu oxuyarsa, onun bütöv məzmunu qarşısında ayaq saxlayıb, ona bir bütün olaraq nəzər salarsa, furqana layiq görüləcəkdir.

Nədir furqan? Furqan ali məfhumdur, xeyri şərdən, haqqı batildən, doğrunu səhvdən ayırmaqdır, fərqləndirməkdir. Quranı düşünərək oxuyan şəxs fərqləndirmə bacarığına sahib olur, danışığına, əməlləri və hərəkətlərinə, düşüncələrinə, niyyətinə məhz furqan əsasında qiymət verir. Bu baş verərsə, insana deyilər: "Müftilər sənə nə fitva verirlərsə versinlər, sən (verilən cavab qənaətbəxş olmadıqda bunu) öz qəlbindən soruş". Quranı bir bütün şəklində oxuyan, ayələr üzərində kompleks şəkildə düşünən şəxs üçün bu kitab "universal bilik etalonu"nu xatırladır. Belə olduqda biz yaxşı başa düşürük ki, nə üçün Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* başlanğıcda səhabələrinə ondan eşitdikləri kəlamlar arasından ancaq ayələri yazmağı əm edibmiş.

Belə ki Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* Qurandan qeyri sözlər yazan səhabələrə yazdıqlarını məhv etmək göstərişi vermişdi[1].

[1] Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* hədislərin təkcə yazıya köçürülməsini qadağan etməmiş, həm də buna açıq-aydın şəkildə qadağa qoymuş, yazılanların cırılıb atılmasına göstəriş vermişdi. Ondan sonra səhabələri də bu cür hərəkət etmişdilər. Xüsusən İki Ustad – Həzrəti Əbubəkr və Həzrəti Ömər hədislərin rəvayət edilməsini sərt şəkildə qadağan etmişdilər. Kim onların yanında bir hədis danışsaydı, tələb edirdilər ki, hədisi təsdiqləyən və həmin şəxslə birlikdə onu Peyğəmbərin ağzından eşitdiyini bildirən şahid göstərsin. Nəticədə səhabələrin böyük əksəriyyəti hədis rəvayət etməkdən imtina etmişdilər. Bu səbəbdən müşahidə edirik ki, gündəlik təkrar olunan, adət halını almış bir çox məsələ müxtəlif rəvayətlərdə bizə gəlib çatmışdır. Halbuki gündəlik təkrar edilən bu məsələlər mütəvatir hədislərdə qeyd edilməli idi. Buraya azan və iqamə ifadələri, "bəsmələ", "Namaza tələsin!" və ya "Ən yaxşı işə tələsin!" ifadələri və sair daxildir.
Hədisləri yazıya köçürmək tələbatı hicri 83-cü ildə Əbdüləziz, hicri 99-cu ildə Ömər ibn Əbdüləziz tərəfindən hədislərin toplanmasına əmrin verilməsindən sonra yarandı. Çünki Ömər ibn Əbdüləziz hədislərin toplanaraq müsəlmanların xidmətinə verilməsinin fiqhi fikir ayrılıqlarına son qoyacağına inanırdı: Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* yolu ilə getmək fəqihlərin ictihadlarına uymaqdan daha məqsədəuyğun idi. Təbii ki, bu addım müsəlmanları birləşdirə, mübahisələri azalda bilərdi.
Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* Qurandan qeyri kəlamların yazıya köçürülməsini nə üçün qadağan etmişdi? Nəyə görə onun iki dostu: Həzrəti Əbubəkr və Həzrəti Ömər bu əmrə ciddi şəkildə əməl etmişdilər?
Bu ona görə idi ki, Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* qəlbləri, ağıl və nəfsləri hər şeydən əvvəl Quranla tərbiyə etməyi düşünürdü. İstəyirdi ki, müsəlmanların bilik modeli Qurandan əxz edilsin, elmi metodları Quran əsasında təsis

olunsun; bununla da onlar universal və nisbi mənbələri istənilən növ biliklərlə müqayisə etməyi, Quran dünyagörüşü forması əsasında təhlil etməyi bacarsınlar. Buraya "Quranın hakimliyi" ideyasının qəlbləri və ağılları əsir etməsi də daxildir.

Yuxarıdakı qadağanın səbəbi bəzilərinin dediyi kimi Quranla hədisi qarışıq salmaq qorxusu olmamışdır. Belə bir səhvə ərəblərin yol verma ehtimalı çox azdır. Çünki onlar ərəb dilini ayələri hədislərdən fərqləndirəcək qədər yaxşı bilirdilər, bəlağət və fəsahət sahibi idilər. Üstəlik, Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* nəfsinə uyaraq danışmırdı. Əgər Peyğəmbər hədislərin yazılmasını qadağan etmişdisə, bunu Allahın ona öyrədib xəbər verdiyi hikmət səbəbi ilə etmişdi. Çünki Quranın dili ilə digər mətnlərin dili arasındakı fərq ərəblərə məlum idi.

Həmçinin Quran əsas sünnələri özündə ehtiva edir. Bu barədə İmam Şafeinin sözü vardır: "Allahın dinində olan elə bir kimsə yoxdur ki, başına bəla gəldikdə Allahın kitabında ona yol göstərən dəlil olmasın" ("Risalə" kitabının "Ön söz" hissəsi, səh. 17-20).

Bununla yanaşı, ilk üç nəsildən sonra alimlər rəvayətçilərin hədisləri məzmunca rəvayət etmələrinə adi şəkildə yanaşmışdılar. Çünki Quran əvvəlki peyğəmbərlərin irsində olduğu kimi hədisləri də təsdiqləyir, onlara "böyüklük" edir. Bu üzdən bəzi ravilərin hədisləri necə başa düşüblərsə elə rəvayət etmələri böyük narahatlıq doğurmurdu. Çünki iki dəqiq "süzgəc" mövcud idi:

**Birinci**. Rəvayət olunan hədis Qurana və dil qaydalarına müvafiq düşməli idi;

**İkinci.** Quran bu hədisi təsdiqləyib, ona "böyüklük" etməli idi. Belə olduqda ravinin yol verdiyi səhvi təshih etmək mümkün idi. Bu səhv isə ravinin fəhm və qavrama səviyyəsindən, linqvistik səbəblər və sairdən irəli gəlirdi. Yazıya köçürmək dəqiq leqallaşdırma vasitəsi idi. Çünki yaddaşa həkk etməkdənsə, yazıya köçürüb yadda saxlamaq daha optimal görünürdü. Əgər yazıda təhrif olardısa, onu yoxlayıb düzəltmək mümkün idi. Bu səhv yaddaşlara həkk olunmuş səhv və təhriflər kimi deyildi.

Buna görə də deyirik: Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* hədisləri yazmağı ona görə qadağan etməmişdi ki, bəzi şərqşünasların dediyi kimi, onların legitimliyi mövcud deyildir. Elələri də vardır ki, hədislərin arqument seçilməsi məsələsində mübahisə edir, özlərini "qurançılar" adlandırırlar. Amma onlar "qurançılar" deyildirlər. Əgər onlar "qurançılar" olsaydılar, Quran ayələri hesabına Sünnənin qanunvericilik statusunu daraltmaz və bilərdilər ki, rəvayətçilər arasında meydana çıxan və fəqihlər arasında kəskinləşən mübahisələr Sünnənin qanunvericilik statusu məsələsi ətrafında cərəyan etməmişdir. Çünki Sünnənin qanunvericilik statusu islamda birmənalı şəkildə təsdiqlənmiş məsələdir. Mübahisə Sünnəyə aid hədislərin rəvayəti, yəni istinad məsələsi ətrafında yaranmışdı. İstinadları isə möhkəmlik (qətilik) və güman (zənn), mövcudluq və olmama ilə tövsif etmək mümkündür. İstinad şərtlərinə uyğun olaraq, hədis ya qəbul olunur, ya da olunmur. Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* tərəfindən deyildiyi isbatlanmış hədisin – belə hədislər səhih adlanır – qanunvericilik statusu ətrafında heç bir mübahisə yoxdur.

Həmçinin bizim bu iddiamız Quranın göndərilmə üslubuna əsaslanır. Məlumdur ki, Quran 23 il, 5 ay, 24 gün ərzində hissə-hissə nazil olmuşdur. Allah Təala buyurur:

"İnsanlara aramla (yavaş-yavaş) oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz onu tədriclə, (iyirmi üç ilə yaxın bir müddət ərzində) nazil etdik" (əl-İsra, 106).

Müşriklər Quranın tədricən göndərilmə üslubuna etiraz etmişdilər. Quranda onların bu etirazı haqqında danışılır və bu üslubun onlara gizlin qalan hikməti izah olunur. Uca Allah buyurur:

"Kafirlər: "Quran ona (Məhəmmədə) bütöv (birdəfəlik) endirilməli idi!" – dedilər. (Ya Rəsulum!) Sənin ürəyinə səbat (qətiyyət) vermək üçün Biz onu ayə-ayə (tədricə) nazil etdik" (əl-Furqan, 32).

# İki "oxu"nun vəhdəti: müqəddəm şərtlər

İndi isə iki "oxu"nu vəhdətdə götürməyin necəliyi məsələsinə toxunaq. Bunun üçün Quran və kainatı "oxumağ"ın bəzi mühüm müqəddəm şərtləri məsələsini izah etmək lazım gələcəkdir. Bununla da, hər iki "oxu"nun vəhdətdə götürülməsi məsələsinə düzgün münasibət bildiriləcəkdir.

## *Quranı "oxumağ"ın müqəddəm şərtləri*

Əvvəlcə, Quranı "oxumağ"ın müqəddəm şərtlərindən danışaq:

---

Bu hikmət (qəlbləri Quranla möhkəmləndirmək) səbəbi ilə Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* müsəlmanların düşüncə və könüllərini ancaq Quranla məşğul etmək istəyirdi. Bu ona görə idi ki, onların düşüncə və könülləri Quranla səbat tapsın. Elə bu üzdən Quran həmin nəslin düşüncələrinə istiqamət verir, könüllərini canlandırır, vicdanlarına təsir edir, hisslərini formalaşdırırdı. Quran onlar üçün görən göz, hərəkət və davranışları, düşüncə və hissləri idarə edən üsul idi. Şeytan onları tovlamaq istədikdə onlar həqiqəti gördükləri üçün ayılır, özlərinə gəlirdilər. Hədislərin yazılmasını qadağan edən hədislər və mövzunun əşəri nöqteyi-nəzərindən müzakirəsi haqqında bax: Əbdülqəni Əbdülxaliq. Sünnənin qanunvericilik statusu, səh. 390 və sonrası; Məhəmməd Üccac əl-Xətib. Yazıya köçürülməzdən əvvəl Sünnə, Qahirə: "Vəhbət", 2004, səh. 293-381. Müəllifin bəzi müddəaları ilə həmfikir olmasaq da, kitab bu mövzuda yazılmış ciddi əsərlərdəndir.

1) **Oxuyan şəxsin Quranı öz könlünə sirayət etdirməsi** onu düzgün başa düşmədə müqəddəm şərtlərin başlıcasıdır. Bəlkə də, bu, iki "oxu"nu vəhdətdə götürməyin ən mühüm şərtidir:

"(Ya Rəsulum!) Cəbrayıla düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir" (əl-Bəqərə, 97);

"Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!

Onu Cəbrayıl (Ruhuləmin) endirdi:

(Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi)" (əş-Şüəra, 192-194).

2) **Quranın struktur (məzmun) bütövlüyü**nün nəzərə alınması da müqəddəm şərtlərdəndir. Quranı bu şərtə əməl edərək "oxumaq" çox mühümdür. Məzmun bütövlüyü diqqətli "oxucu"nu Quranın ənginliklərində dövrə vurmağa, oxuduğunu dərk etmək üçün ayələr haqqında düşünməyə, aralarındakı bütün mümkün əlaqələri axtarıb tapmağa sövq edir[1].

3) **Bu və ya digər surənin bir bütöv kimi götürülməsi** də məlum şərtlərdən biridir. Bu şərt Quranın məzmun bütövlüyü şərtindən o qədər də fərqlənmir, amma burada əsas diqqət hər hansı bir surənin bütöv vahid kimi nəzərdən keçirilməsinə veri-

---

[1] Quranın struktur (məzmun) bütövlüyü haqqında məqaləmiz "əl-Kəlimə" jurnalının 2004-cü il buraxılışında (№43) nəşr edilmişdir. Maraqlananlar həmin məqaləyə müraciət edə bilərlər.

lir. Yəni, diqqətli və dərrakəli "oxucu" bu və ya digər surəni ayrıca vahid kimi götürür. O, surə haqqında düşünməklə ondakı "sütun" və ya "sütunlar"ı axtarmağa başlayır. Yəni, hər bir surənin ana mövzusu vardır və ondakı ayələr onu izah etmək, onunla əlaqəli məsələlərə aydınlıq gətirmək üçün mövcuddur. Digər mövzular isə başlıca mövzu ilə bu və ya digər şəkildə əlaqəli olub onu gücləndirir, izah edir. Bu mövzular evin əsas sütunlarına birləşdirilmiş əlavə dayaqları xatırladır. İslahi bu barədə tutarlı elmi tədqiqat aparmışdır[1]. Şeyx Əmin Xuli də bu mövzuya toxunmuşdur[2].

4) **Ali dəyərlər şərti**. Buraya tövhid, təzkiyə[3] və abadlaşdırma dəyərləri daxildir. Mühümlüyünə görə bu üç dəyər elə bir dərəcə kəsb etmişdir ki, onları Qurani-Kərimin mehvərləri hesab etmək mümkündür. Elə mehvərlər ki, bütün ayə və surələr onların ətrafında dövrə vurur.

**Tövhid** – Allahın haqqıdır. Haqqıdır ki, bəndələri onun təkliyinə, mahiyyəti, atributları və işlərində özünəməxsusluğuna iman gətirsinlər. Son dərəcə mühümlüyü səbəbindən Quran ayələri və surələrinin

[1] Professor Əbdülhəmid əl-Fərahi əl-İslahi (Allah rəhmət etsin!) tə`vil və Quran elmləri haqqında silsiləvi tədqiqatlar aparmış, "surələrin sütunu" mövzusuna ayrıca araşdırma həsr etmişdir. İslahi yazır: "Hər bir surənin öz "sütun"u vardır. Diqqətli tədqiqatçı məzmunu başa düşmək, mövzuları dərk etmək üçün onu aşkara çıxarmağa borcludur". Hindistanda onun bu tədqiqatları "əl-Məktəbə əl-islahiyyə" mətbəəsi tərəfindən nəşr edilmişdir.

[2] Bax: Mustafa Nasif. Tə`vil məsuliyyəti. Qahirə: "Dar əs-səlam", 2004, səh. 139.

[3] Təmizləmə, paklama deməkdir – ***tərcüməçinin qeydi.***

böyük əksəriyyəti tövhiddən söz açır, çünki hər şey tövhiddən asılıdır. Tövhid etiqadın mahiyyəti, imanın əsası və özülüdür.

**Təzkiyə** elə "şəhadətnamə"dir ki, insan oğluna xəlifəlik vəzifəsini icra etmək, əmanətə sahib çıxmaq, Allaha verdiyi vədi tutmaq – yer üzünü abadlaşdırmaq üçün bacarıq bəxş edir:

"Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da (cənnət torpağına, yer üzünə və ya müqəddəs) torpağa yalnız Mənim saleh bəndələrimin varis olacağını yazmışdıq" (əl-Ənbiya, 105).

Təzkiyə insan oğlunu axirətdə Firdovs cənnətinə hazırlayır:

"(Möminlərdir) Firdovs cənnətinə varis olanlar, orada əbədi qalanlar!" (əl-Muminun, 11).

Abadlaşdırma insan oğluna xəlifəlik vəzifəsi verildikdən sonra yüklənmiş öhdəlikdir. Bu elə bir vəzifədir ki, Allah onun icra edilməsi, həm də layiqi ilə icra edilməsi üçün təbiəti insan oğluna ram etmişdir.

Biz kainatdakı qanunauyğunluqlardan çox şeyi öyrənir, Allahın mövcudluğuna, təkliyinə dəlalət edən arqumentlərlə tanış oluruq. Bu qanunauyğunluqlar barəsində düşünməklə insan fitrətinə uyğun düşən məsələləri müəyyənləşdiririk. "Yaratma, qayğıkeşlik, tənzimləmə və s." dəlillərdən bizi fitrətimizin səsinə haray verməyə, peyğəmbərlərinə çağırışına qulaq asmağa hazırlayan "məlumatlar" əldə edirik. Çöldən Quran və Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)*, o cümlədən digər peyğəmbərlər, daxildən isə insan fitrəti hidayət, təzkiyə və abadlaşdırma işini icra etmək üçün əl-ələ

verirlər. Abadlaşdırma hidayət, təzkiyə və ibadətin kainat və ram edilmiş təbiət üzərində inikasıdır.

Bununla da, insan oğlu kainatda hər bir şeyin Allahı zikr etməsi prosesinə başçılıq edən tərəfə çevrilir. İnsandan başqa hər kəs və hər şey Allahı qeyri-iradi olaraq xatırlayır. İnsan istisnadır, Allahı xatırlamada azaddır, ixtiyar sahibidir:

"Yeddi göy, yer və onlarda olanlar (bütün məxluqat) Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız. (Allah) həqiqətən, həlimdir, bağışlayandır!" (əl-İsra, 44).

Biz onların zikr etmələrini necə öyrənəcəyik? Göylərin və yerin yaradılması haqqında düşünməklə, baş sındırıb dərs çıxarmaqla!

"Yerdə gəzən elə bir heyvan, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. (Onlar da sizin kimi bir zümrədir. Allah onlara da ruzi vermiş, əcəllərini əvvəlcədən müəyyənləşdirmişdir. Onlar da öz qabiliyyətlərinə görə Allahın vəhdaniyyətini mədh edib, şəninə tərif deyirlər). Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik). Sonra onlar (bütün canlılar, bütün məxluqat) Rəbbinin hüzuruna cəm ediləcəkdir" (əl-Ənam, 38).

Bu müqəddəm şərtlər əsasında Quranı "oxusaq", pərdə arxasındakı başqa bir müqəddəm şərt bizə məlum olacaqdır. Bu, beşinci şərtdir:

5) **Allah, insan və ram edilmiş kainat arasındakı münasibətlər əsasında Quranın ənginliklərinə dalmaq**.

"Allah" dediyimizdə təsəvvürümüzdə bütövlükdə qeyb aləmi canlanır. "İnsan" dediyimiz vaxt isə onunla əlaqəli hər bir şeyə işarə edirik: "ilk əhd aləmi"ndən[1] başlayır, "yaratma və meydana gətirmə, vəzifə yükləmə aləmi"ndən keçir, "aqibət: cənnət və ya cəhənnəm aləmi"ndə qurtarırıq!

Kainata gəlincə, biz bu sözü tələffüz etdikdə məxluqatı, şeyləri, onlarla əlaqəli qanunauyğunluq və qanunları, müxtəlif varlıq kateqoriyalarını: heyvanları, dənizləri, çayları, Günəş və Ayı, insanı və sairi nəzərdə tuturuq.

Bu o deməkdir ki, biz Allah, insan və kainat arasında əlaqə axtarırıq, Quranda söz açılan hər bir şeydə qarşılıqlı təsir tapmağa çalışırıq. Bununla da, bizə Quran barəsində düşünmək imkanı verən bilik və təcrübə, o cümlədən bacarıq əldə edirik. Bu da öz növbəsində bizi təşviq edir ki, indiki vəziyyətimiz haqqında düşünək. "Ali dəyərlər" və "Xaliq-məxluq əlaqəsi" şərtləri Quran ayələrinə "səyahət"ə çıxdığımızda bizə yaxından bələdçilik edəcəkdir.

---

[1] Burada Allahın adəm oğullarının ruhlarına müraciət etdiyi an nəzərdə tutulur. Bu barədə aşağıdakı ayədə məlumat verilmişdir: "(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxardıb onların özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, rəbbimizsən!" – deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: "Biz bundan qafil idik"; Və ya: "Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, bis də onlardan sonra gələn bir nəsil idik (onların izi ilə getdik). Məgər biz batilə uyanların (haqq yoldan sapanların) törətdikləri əməllərə görə məhv edəcəksən?" – deməməyiniz üçündür" (əl-Əraf, 172-173).

**6) Mövzu təsnifi**. Quran ayələri üzərində çalışqanlıq göstərdikdən, oradakı ən mühüm təfsilatlı mövzular haqqında düşündükdən sonra iman, küfr, şirk, münafiqlik, haqq və batil, namaz, bilik, islah, dağıdıcılıq və sair mövzuları müəyyən etməliyik. Daha sonra müəyyən mövzu ilə əlaqəli bütün ayələri kompleks şəkildə öyrənməliyik. Bu vaxt Quranın struktur bütövlüyü prinsipini heç vaxt unutmamalıyıq. Yəni, bir mövzunu öyrənərkən Quranın bütün ayə və surələrinə kompleks yanaşmalıyıq. Bundan sonra düşünmək, silmə və təsnif əməliyyatları gəlir. Bu o vaxtadək davam edir ki, mövzu ilə əlaqəli bütün ayələri təhlil etdiyimizdən əmin oluruq. Düşünməyə, baş sındırmağa davam etsək, müəyyən vaxtdan sonra özümüzü Qurana bağlanmış tapacağıq, bu kitaba kompleks yanaşacaq, surə və ayələrini bir bütün olaraq nəzərdən keçirəcəyik. Beləliklə, fəhmimiz, şüurumuz artacaqdır. Bu yerdə İmam Şafeinin *(Allah rəhmət etsin!)* sözünü iqtibas gətirə bilərik. İmam Şafei Qurandakı hökm ayələrini müəyyənləşdirməyə çalışmışdır. Onun "Quran hökmləri" adlanan kitabı vardır. Fəqihlərə görə, hökm ayələrinin sayı məhdud olub 500-ü keçmir. Bəzi fəqihlər isə bu rəqəmi 240 olaraq göstərirlər.

Amma İmam Şafei başa düşmüşdü ki, hökm ayələrini məhdudlaşdırmaq ənənəsindən kənara çıxmaq lazımdır. O göstərirdi ki, Quran məsəllərində də çoxlu hökmlər vardır[1]; hətta Quran qissələri hökmlərdən xali

[1] Quran məsəlləri keçmiş xalqlarla əlaqəli təcrübə faktları kimi hökm və qanunvericilik hallarını da özündə ehtiva edir. Amma bu məsəllərin hökm təqdim etmə üslubu hökm ayələrinin üslubundan fərqlənir. Bu səbəbdən İmam Şafei hər bir müctəhidin Quran məsəllərini bilməli olduğunu bildirmişdi. Müctəhid üçün

deyildir. Konteksti və bütün əlaqələrini bilmədən hər hansı bir hökmü müəyyənləşdirmək mümkün deyildir. Biz bu barədə "Quranın məzmun bütünlüyü" adlı tədqiqatımızda təfsilatı ilə danışmışıq. Ətraflı məlumat əldə etmək istəyənlər həmin mənbəyə müraciət edə bilərlər.

7) **Harmoniya axtarmaq**. Ayələr və surələr arasında həmahənglik tapmaq olduqca mühüm məsələdir. Əvvəlki dövr alimləri bu işə cəhd göstərərək müəyyən

---

zəruri sayılan elmi keyfiyyətlərdən söz açan İmam Şafei deyirdi: "...Daha sonra (Allaha) itaətin zəruriliyini göstərən, Ona asilikdən çəkinməyin vacibliyinə dəlalət edən məsəlləri bilmək (lazımdır)". Süyutinin "əl-İtqan" kitabında deyilir ki, məsəlləri bilmək müctəhidin öyrənməli olduğu Quran elmlərindən biridir. Bax: Süyuti. əl-İtqan fi ülum əl-Quran, II cild, səh. 131.
Mavərdi demişdir: "Quran elmlərinin ən böyüyü ondakı məsəlləri öyrənən elmdir, amma insanların ondan xəbəri yoxdur...". Zərkəşinin "əl-Burhan" kitabında da (I cild, səh. 486) eyni məzmunda məlumat vardır.
Süyuti danışır ki, Şeyx İzzəddin demişdir: "Allah xatırlatma və öyüd-nəsihət məqsədilə Quranda məsəllər çəkir. Bu məsəllərdə savab, əmmələrin puç olmağı, tərif, məzəmmət və s. motivlər vardır. Məsəllər hökmlərə dəlalət edir". Bax: Süyuti. əl-İtqan fi ülum əl-Quran, II cild, səh. 131.
İbn Xəllad ər-Raməhrəmzi demişdir: "Quran məsəlləri ilə Böyük və Uca Allah mükafat və cəzadan danışmış, halal və haram əməlləri qoymuş, ümid verib, qorxutmuş, müşriklərin canına vəlvələ salmış, öyüd-nəsihət edib xatırlatmış, özünün aşkar qüdrətini göstərmişdir. Yerdə və göylərdə ən ali məsələ Allaha məxsusdur. Allah yenilməz qüvvət (qüdrət) sahibi, hikmət sahibidir!" Ətraflı məlumat üçün bax: Məhəmməd Cabir əl-Fəyyaz. Quranda məsəllər, səh. 266.

məsafə qət etmiş, bəziləri isə geri çəkilmiş, müvəffəq ola bilməmişdilər.

İmam Fəxrəddin Razi demişdir: "Kim surələrin sistemliliyindəki incəlik və tərtibindəki mükəmməlik haqqında düşünərsə, görəcəkdir ki, Quran təkcə sözlərinin fəsahəti, mənanın üstünlüyü baxımından deyil, həm də ayələrin tərtibi və sistemliliyinə görə ecazkar (möcüzəvi) kitabdır... Quranda ən çox incəlik (ayə və surələrin) tərtibi və əlaqəsində gözlənilib"[1].

Qazı Əbubəkr ibn əl-Ərəbi yazır: "Quran ayələrinin məna ahəngdarlığı və forma mütəşəkkilliyi yaradacaq qədər bir-biri ilə əlaqəsi böyük bir bilik sahəsinin mövzusudur"[2].

"Ayə və surələrin harmoniyasını izahda mirvarilərin düzülüşü" kitabının müəllifi Bürhanəddin əl-Büqai yazır: "Bəzən bir surə daxilində müxtəlif məsələlər bir sözdə (ifadədə, cümlədə) ifadə olunur. Və bu sözün əvvəli axırı, axırı da əvvəli ilə rabitəlidir. Bəzən isə bir məsələyə dair cümlələr bir-biri ilə əlaqəli olur. Surədəki sistemliliyi dərindən başa düşmüş şəxs surəyə bir bütün olaraq nəzər salmalı, bir məsələyə dair ayrı-ayrı detalları diqqətdən qaçırmamalıdır".

Biz bu şərtə əməl etməklə şüurlu surətdə "oxumağ"a girişsək, müxtəlif mövzulardan, ayrı-ayrı məfhumlardan bəhs edən hər hansı surəni "oxuduqda" ayələrini, söz qruplarını bir-bir gözdən keçirməliyik. Daha sonra əvvəlindən axırına, axırından əvvəlinə doğru "səyahət"ə çıxmalıyıq. Nəhayət, surənin adı və məzmunu arasında-

---

[1] Yenə orada.

[2] Yenə orada.

kı əlaqəni, əvvəli və sonunun rabitəliliyini təhlil etmək lazımdır. Bu vaxt biz ondakı rabitələr şəbəkəsinin şahidi olacağıq. Bu da bizdə belə bir təsəvvür yaradacaqdır ki, həmin surə nazil olduğunda bir bütün olaraq nazil olmuşdur.

Bu şərtlər ona görə təklif edilir ki, nəticə etibarı ilə Quranla iç-içə olaq, ona yaxınlaşmağa cəhd göstərək. Bu şərtlər yeganə və son şərtlər deyildir; onları inkişaf etdirmək, əlavələrini göstərmək mümkündür. Çünki Quranın qəribəlikləri tükənməzdir; o, (iddialara) cavab verməkdən usanmır.

## Kainatı "oxumağ"ın müqəddəm şərtləri

Vəhydə olduğu kimi, kainatı da "oxumağ"ın öz müqəddəm şərtləri vardır. Bu şərtlərə daxildir:

**1) Yaradılma**. Bu şərtə görə, kainatın, məxluqatın Allah tərəfindən yaradıldığına iman gətirmək lazımdır. Yəni, varlıq aləmi yaradılmış, Allahın "ol!" sözü və iradəsi ilə meydana çıxmışdır. Allah hər şeyi haqq yaratmışdır; hər şey müəyyən miqdarda, müəyyən ölçüdədir, müəyyən məqsədə xidmət edir. Təsadüfdən, məqsədsizlikdən söhbət gedə bilməz. Hər şeyin səbəbi olduğu kimi, məqsədi də vardır.

Xəlifəlik vəzifəsini icra etmək, Allaha verilən sözü tutmaq, əmanəti qorumaq, sınaq və müsibətlərdən üzüağ çıxmaq – bütün bunlar üçün yuxarıda deyilənləri bilmək və dərk etmək lazımdır. Belə olan təqdirdə bizi Allaha aparıb çıxaran, Onun kamilliyini göstərən, Ona

iman gətirməyi təmin edən "əlamətlər" tapacağıq. Bu əlamətlərlə Onun əzəmətini anlayacaq, Ondakı yaratma gücü və müdrikliyin şahidi olacağıq.

Quran bizi məxluqat və təbiət haqqında düşünməyə çağırır, amma təbiət elmlərinə mənbə olmaq üçün öz namizədliyini irəli sürmür. Quran məxluqat və təbiət haqqında düşünməyə çağırmaqla insan oğlunun əlindən yapışıb onu Allah barəsində biliklərə doğru aparır. Quran istəyir ki, insan oğlu varlıq aləmi haqqında düşünməklə Allahı tanısın, Onun təkliyini dərk etsin, kamilliyinə əmin olsun, nöqsanlardan uzaq olduğunu qəbul etsin. Məqsəd insanın idrak qabiliyyətini, intellektual bacarığını, şüurunu inkişaf etdirmək, onu ona tapşırılmış böyük işlərin icrasına hazırlamaqdır. Əgər vəhy insana nəfsini paklamada – təzkiyədə[1] yol göstərirsə, məxluqat və təbiət haqqında düşünmək isə ona abadlaşdırma vəzifəsini icra etmək üçün bacarıq və bilik bəxş edir. Məxluqat və ram edilmiş təbiət, oradakı qanun və qanunauyğunluqlar haqqında düşünmək lazımdır ki, hər şeyin insan üçün olmağı dərk edilsin; insan təbiətə tabe edilməmişdir; insan təbiətin ona tabe etdirilməsinə aldanıb təkəbbürə qapılmamalı və belə deməməlidir: "Bu (var-dövlət) mənə yalnız məndə olan elm sayəsində verilmişdir" (əl-Qəsəs, 78). Və ya təbiət qarşısında özünü məğlub bilib Allaha şərik qoşmamalıdır. Yaxud təbiəti təkbaşına məğlub etdiyi gümanına qapılaraq imansızlaşmamalıdır; əksinə, bilməlidir ki, təbiəti Allah yaratmış, onun ixtiyarına vermişdir;

[1] Çünki nəfsi paklamaq (təzkiyə) Allahın təkliyini təsdiqləməkdən (tövhiddən) sonra ən mühüm məsələdir.

insanların və təbiətin rəbbi eynidir; bu rəbb insan oğluna xəlifəlik vəzifəsi vermiş, yer üzünü abadlaşdırmağı tapşırmışdır.

Bu mühüm şərtlə əlaqəli, vəhyin də söz açdığı digər ikinci dərəcəli şərtlər vardır:

**a. Yaradılma prinsipinə, məxluqatın necə meydana çıxmasına, varlıqların ən mühüm vəzifələrinə bələd olmaq**. Uca Allah buyurur:

"Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlərmi?" (əl-Ənbiya 30);

"Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?!

Orada ayı bir nur, günəşi də bir çıraq etdi" (Nuh, 15-16);

"Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi göyərtdi.

Sonra sizi yenə ora qaytaracaq və (qiyamət günü dirildib oradan da) çıxardacaqdır" (Nuh, 17-18).

**b. Kainatdakı dəqiq nizamı və yaradılmanın məqsədyönlülüyünü üzə çıxarmaq.** Allah Təala buyurur:

"Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: "Ol!" deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun (İsrafilin surunun) çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!" (əl-Ənam, 73);

"Biz göyü, yeri və onlar arasında olanları oyun-oyuncaq yaratmadıq.

Əgər Biz (Özümüzə) əyləncə etmək istəsəydik, onu mütləq Öz dərgahımızdan edərdik. Lakin Biz (bunu) etmədik" (əl-Ənbiya, 16-17).

İnsandan tələb olunur ki, bütün bunları başa düşmək üçün göylərin və yerin yaradılması haqqında düşünsün. Düşünsün ki, kainat və təbiətdəki dəqiqlik və nizamlılığı, tənzimləyici qanunauyğunluqları, məqsəd və səbəbi görə bilsin. Belə olan təqdirdə Allahın təkliyi ona məlum olacaqdır və o bundan çıxış edərək kainat, həyat və insan haqqında təsəvvürlərini formalaşdıracaqdır. Bununla da, abadlaşdırma vəzifəsini icra etmək imkanı əldə edəcəkdir. Əks halda, dünya həyatı onun üçün əyləncə, oyun-oyuncaq olacaqdır. Allah isə bundan uzaqdır:

"Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?" (əl-Muminun, 115).

İnsan oğlu bu şərtə əməl etdikdə həm də onu aşkara çıxarır ki, məlum sistemin dəqiq və möhkəm olmağı onun əbədiliyindən, namütənahi mövcudluğundan xəbər vermir; əksinə, kainat müəyyən vaxta qədər mövcudluğunu davam etdirəcək, nəhayətində yox olacaqdır. Sistemindəki dəqiqlik, genişliyi və böyüklüyü, əsrarəngizliyi kainata əbədilik xassəsi qazandırmır:

"Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlər? Həqiqətən, insanların çoxu rəbbi ilə qarşılaşacağını (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağını) inkar edir" (ər-Rum, 8).

Lakin əbədi olmamağı, nə vaxt isə yox olacağı kainatın haqq olaraq yaradılmağı faktını inkar etmir. İnsan kainatın bir parçası, təbiətin qanuni oğlu olduğu üçün onun başına gələcək şeylərin özünün də başına gələcəyini unutmamalıdır:

"Şübhəsiz ki, (rəbbindən) özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəyində ancaq bir təkəbbür (böyüklük iddiası, sənə qarşı həsəd) vardır. Onlar heç vaxt Ona (böyüklüyə, peyğəmbərlik dərəcəsinə) çatmayacaqlar. Sən Allaha pənah apar. Həqiqətən, O, (hər şeyi) eşidəndir, görəndir!

Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz!" (Ğafir, 56-67).

Bu barədə nə isə bildiklərində də Allahdan, vəhydən qopuq şəkildə bilirlər:

"Onlar dünya həyatının zahirini (ticarət və əkinçilik işlərini, məişət məsələlərini) bilirlər, axirətdən isə xəbərsizdirlər" (ər-Rum, 7).

Bu şərti doğru başa düşsək, diqqətlə öyrənsək, görəcəyik ki, Allah Təala elm və iman arasında əsrarəngiz vəhdət əlaqəsi təsis etmişdir. Elm imandan ayrıldıqda zərəri bəzən faydasından çox olur:

"Elm və iman sahibləri isə belə deyərlər: "Siz (qəbirlərinizdə) Allahın Kitabında (əzəli elmində yazılmış) olan qiyamət gününə qədər qaldınız. Bu, (hamının dirildiyi) qiyamət günüdür, lakin siz (onun haqq olduğunu) bilmirdiniz!" (ər-Rum, 56).

Qurani-Kərim insanla onun üçün yaradılmış və ixtiyarına verilmiş dünya arasında möhkəm əlaqə təsis

etmişdir. Ona görə təsis etmişdir ki, aralarında çəkişmə və mübarizə olmasın, bir çox dəyərlər itirilməsin. Bəlkə də, bu dəyərlərin itirilməsi kainat və təbiətin insan oğlunun ixtiyarına verilməsi faktına təsir etməyəcəkdir; amma bu, insan oğlunu, ən azından, ali hisslərdən məhrum qoyacaqdır. Məhz bu hisslərin sayəsində insan ətraf aləmi, oradakı əşya və canlıları sevir, hörmət edir, psixoloji cəhətdən daxilən sakitlik tapır, başqaları ilə dinc əlaqələr yaradır; təbiəti ram etməklə, istifadə qaydalarını öyrətməklə Allahın ona bəxş etdiyi saysız nemətlərin qədrini bilir, yer üzündə necə xəlifəlik etməyi, oranı necə abadlaşdırmağı, haqq və ədaləti necə bərqərar etməyi öyrənir, – bütün bunlar onu Yaradana ibadət etməyə sövq edir.

Kainat, təbiət və məxluqat insan oğlunun ixtiyarına verildiyi üçün təbiətin ram edilməsinə ehtiyac qalmır. Məhz Allah insana bu yaxşılığı etmişdir:

“Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!” (əl-Casiyə, 13);

“Sizi yer üzündə yerləşdirdik və orada sizin üçün dolanacaq vasitələri yaratdıq. Siz isə olduqca az şükür edənlərsiniz!” (əl-Əraf, 10).

İnsan oğlundan tələb olunur ki, bütün bunlardan istifadə etsin. Əgər o bunu etməzsə, dünyadakı missiyasına xələl gələcəkdir. Abadlaşdırma da ibadətdir. Təbiətin laqeydliyə tuş gələn istənilən hissəsi ya ölüdür, ya da öldürülmüşdür:

“Ölü torpaq onlar üçün (qiyamət günü ölüləri dirildəcəyimizə) bir dəlildir. Biz onu (yağışla) dirildir, oradan (arpa, buğda, düyü və s. kimi) dənələr çıxardırıq, onlar da ondan yeyirlər” (Yasin, 33).

Bu səbəbdən müsəlman hüquqşünasları islam hüququnun fəsilləri arasına “Ölü əraziləri canlandırma” adlı fəsil əlavə etmişlər. Söhbət baxımsız qalan, əkilməyən, sərmayə yatırılmayan, inşaat aparılmayan sahələrdən gedir.

Quran insanla varlıq aləmi arasında dostluq əlaqəsi təsis etmiş, bunu təkcə ətraf aləmlə məhdudlaşdırmamışdır; əksinə, bu əlaqə Günəşi də, Ayı da, ulduzları da əhatə etmişdir:

“Orada ayı bir nur, günəşi də bir çıraq etdi” (Nuh, 16);

“Suyun və qurunun zülmətində (yolunuzu) düz getmək üçün ulduzları sizin üçün yaradan da Odur. Biz bu ayələri anlayan bir camaat üçün bu cür ətraflı izah etdik” (əl-Ənam, 97).

Quran xəlifə təyin edilən, abadlaşdırma işi tapşırılan, Allaha ibadət etməkdə mükəlləf tutulan insana bildirir ki, kainatla – varlıq aləmi ilə münasib şəkildə əlaqə yaratmaq üçün rəbbinin ona bəxş etdiyi imkan və bacarıqlardan istifadə etsin:

“Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) şükür edəsiniz!” (ən-Nəhl, 78).

İnsanın bu vasitələrə çox ehtiyacı vardır. O bu vasitələrdən istifadə etməli, onlardakı potensialı artırmağa çalışmalıdır. İnsandan tələb olunur ki, kainat və yer kürəsi haqqında düşünsün. O belə edərsə, aralarında fayda mübadiləsi baş verər. Mühakimə, müşahidə, təfəkkür, təhlil insana yer üzündən müsbət şəkildə istifadə etmək, ondakı potensialı inkişaf etdirmək imkanı verir. Kainat, təbiət haqqında düşünmək bu vasitələrə ikiqat güc qazandırır; yox, o bu vasitələri istifadəsiz qoyarsa, tənbəllik və ətalətə məruz qalacaq, doğru yoldan kənara çıxacaqdır.

**2) Qayğı**. Bu şərt "yaradılma" şərti ilə müəyyən qədər əlaqəlidir. Biz "yaradılma" şərtinə əməl edərək, yaradılma, yəni Allahın yaratmağa necə başlamağı haqqında düşünürük, yaradılmadakı məqsəd, onun gedişi və nə ilə qurtaracağı barəsində mühakimə yürüdürük. Amma "qayğı" şərtinin sayəsində kainatın dəqiq nizamı haqqında düşünür, ilahi yaradıcılığın əsrarəngiz tərəflərini, əvəzedilməz qanun və qanunauyğunluqları aşkara çıxarırıq. Bu şərt eyni vaxtda bizə izah edir ki, Allah kainatın qayğısına qalmaqla həm də bizim qayğımıza qalmışdır.

Bu cür düşüncə bizdə ağlımızı tərbiyə edir və o, ətraf aləm barəsində rasional mühakimə yürütməyə başlayır. Bunun sayəsində insan oğlu məqsədləri, universaliləri öyrənir, rəbbinə iman gətirir, özünə güvənir; onu da dərk edir ki, kainat ayrı-ayrı hissələrdən, qopuq elementlərdən ibarət deyildir; əksinə, dəqiq nizam və mükəmməl mütəşəkkillikdən təşkil olunmuşdur. Bu da öz növbəsində kainat, həyat və insana dair bü-

töv dünyagörüşü formalaşdırır. Tarixən filosoflar, fəlsəfi məktəblər kainatın elementlərini eyni kökə qaytaracaq metod, təbii və kosmik təzahürlərin hərtərəfli izahını verən bilik sistemi, yaxud bilik etalonu axtarışında olmuşlar, indi də axtarırlar. Şübhə yoxdur ki, xüsusən materialist alimlər bir çox təbii təzahürlərlə əlləşir, amma bir şeyə nail ola bilmirlər. Bəlkə də, bunun əsas səbəbi həmin materialist alimlərin bu təbii təzahürlərin arxasındakı dəqiq nizama, hədsiz ilahi qayğıya fikir verməmələridir. Onlar təkcə maddi (konkret, empirik) təzahürləri öyrənirlər ki, bu da onları "maddi təbiətin elementləri arasındakı dialektika" müddəasının boyunduruğuna salır[1].

[1] Modern Qərb mədəniyyətinin problemlərindən biri də ağıl anlayışı ilə əlaqəlidir. Qərbdə hesab edirlər ki, ağıl həmişə qəlblə, dinlə, Allahla ziddiyyət içərisindədir. Bu yanaşma dualizmlə əlaqəlidir. Bizim isə dualizmə ehtiyacımız yoxdur. Quran insan ağlı üçün ayrıca konsepsiya təsis edib. Bu konsepsiya vasitəsilə zəka anlayışına tərif vermək, funksiyalarını göstərmək mümkündür. Quranın ağıl anlayışı qəlbdən qopuq deyildir, onunla, imanla ziddiyyət əmələ gətirmir. Quranın bir çox ayəsində ağıl və imanın (qəlbin) inteqrasiyasına dair məlumat vardır. Məsələn: "Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın möcüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" (əl-Əraf, 179); "Məgər onlar (peyğəmbərləri yalançı hesab edən kafirlər) yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri (bəsirət gözləri), eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər (qəlb gözü) kor olar. (Kafirlər keçmiş

Dəqiq yaradılma və bütöv sistemə gəlincə, tədqiqatçı alim Tək Yaradana, müdrikliyi və qayğıkeşliyinə, mütləq qüdrətinə iman gətirmədikcə bunları dərk edə bilmir. Məhz bu, tədqiqatçını yanılmaqdan, səhvə düşüb yolunu azmaqdan qoruyur. Allah Quranda insanlara peyğəmbərlərin atası Həzrəti İbrahimi *(Ona salam olsun!)* məsəl çəkir. Belə ki o, bir sıra kosmik təzahür və obyektlər haqqında düşünür, özü ilə müqayisədə onların məqamını (statusunu) və özünün onlara necə münasibət bəsləyəcəyini araşdırır:

"Gecə qaranlığı (onu) bürüdükdə o, bir ulduz görüb: "Bu mənim Rəbbimdir!" dedi. (Ulduz) batdıqda isə: "Mən batanları sevmirəm", söylədi.

(Sonra) doğan ayı görüb: "Bu mənim Rəbbimdir!" – dedi. (Ay) batdıqda isə: "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən zəlalətə düşənlərdən olardım", – söylədi.

(Daha sonra) doğan günəşi görüb: "Bu mənim Rəbbimdir, bu, daha böyükdür!" – dedi. (Günəş) batdıqda isə dedi: "Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan (bütlərdən, səma cisimlərindən) uzağam!

---

ümmətlərin başına gələn müsibətləri zahiri gözləri ilə görsələr də, qəlb gözü ilə görüb onlardan heç bir ibrət almazlar)" (əl-Həcc, 46) və s.

Quranda ağıl qəlbin bir hissəsi olaraq nəzərdən keçirilir, insanı əmələ gətirən ünsürlər: ağıl, qəlb və ruh arasında koordinasiyanın olduğu göstərilir. Biz belə ağıl məfhumu ilə istənilən dualizmi, ağıl, qəlb, elm, iman arasında mövcud olduğu iddia edilən istənilən ziddiyyəti rədd edirik.

Mən, həqiqətən, batildən haqqa tapınaraq (dönərək) üzümü göyləri və yeri yaradana çevirdim. Mən (Allaha) şərik qoşanlardan deyiləm!" (əl-Ənam, 76-79).

Atasının qayırdığı və satdığı bütlərə xalqının tapındığını müşahidə edən İbrahim problem və ya böhranla üz-üzə gəlmişdi. Yuxusunu ərşə çəkən bu problemi İbrahim həll etmək istəmiş, atası Azərə – bütləri qayıran bu şəxsə və xalqına demişdi: "Nəyə ibadət edirsiniz?"

Onlar: "Bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik!" – deyə cavab vermişdilər.

(İbrahim) demişdi: "Onları çağırdığınız (dua etdiyiniz) zaman sizi eşidirlərmi?

Yaxud sizə bir xeyir və ya zərər verə bilirlərmi?" (əş-Şüəra, 70-73).

Onların qənaətbəxş cavabı yox idi. Verdikləri cavabda əcdadları təqlid ifadə olunmuşdu:

"Onlar: "Xeyr, ancaq biz öz atalarımızın belə (ibadət) etdiklərini gördük!" – deyə cavab vermişdilər" (əş-Şüəra, 74).

Bu məqamda Həzrəti İbrahim düşdüyü böhrandan xilas olmaq üçün Allahın müvəffəq etməsi ilə göylər və yer haqqında düşünməyə başlayır.

İbrahim üz-üzə gəldiyi böhranla əlaqəli ümumi sualı bir neçə hissəyə ayırmışdı. O, göy cisimlərindəki iki təzahür: doğduqdan sonra batma və işıqsaçma təzahürləri haqqında düşünmüş və dərk etmişdi ki, qürub və yoxolma ilahi varlığa aid xüsusiyyətlər ola bilməz. Əgər onda bu xüsusiyyətlər vardırsa, məxluqatı necə idarə edə bilər? Yoxa çıxdığında məxluqatın qeydinə kim qalacaqdır? Bütün bunlar İbrahimi düşündürürdü.

Bundan sonra İbrahim yer haqqında fikirləşib, xalqına və atasına əsas sualını ünvanladı:

"...Nəyə ibadət edirsiniz?"

Onlar: "Bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik!" – deyə cavab vermişdilər.

(İbrahim) demişdi: "Onları çağırdığınız (dua etdiyiniz) zaman sizi eşidirlərmi?

Yaxud sizə bir xeyir və ya zərər verə bilirlərmi?"

Onlar: "Xeyr, ancaq biz öz atalarımızın belə (ibadət) etdiklərini gördük!" – deyə cavab vermişdilər.

(İbrahim) demişdi: "İndi nəyə ibadət etdiyinizi görürsünüzmü? –

Sizin və ulu babalarınızın?

Aləmlərin Rəbbi istisna olmaqla, onlar (sizin bütləriniz) mənim düşmənimdir.

Məni yaradan və məni doğru yola yönəldən Odur!

Məni yedirdən də, içirdən də Odur!

Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir.

Məni öldürəcək, sonra (yenidən) dirildəcək Odur.

Və qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur!

Ey Rəbbim! Mənə hikmət (peyğəmbərlik, elm) bəxş et və məni (Sənin rizanı qazanmış) salehlərlə (yaxşılar zümrəsinə) qovuşdur!

Sonra gələnlər arasında mənə yaxşı ad qismət elə! (Gələcək nəsillər məni həmişə yad etsinlər, xatirimi əziz tutub adımı hörmətlə çəksinlər!)

Məni Nəim cənnətlərinin varislərindən et!

Atamı bağışla! Şübhəsiz ki, o, (haqq yolu) azanlardan oldu!

(İnsanların qəbirlərindən çıxardılıb) dirildəcəyi gün (qiyamət günü) məni zəlil (rüsvay) etmə!

O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!" (əş-Şüəra, 70-89).

Göylər və yer haqqında rasional mühakimədən sonra: "Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun!" (əl-Ənam, 75).

Bundan sonra İbrahim atası və xalqının bütlərindən tamamilə uzaqlaşaraq üzünü göyləri və yeri yaradana tutdu, digər dinlərdən "islam"a yönəldi, Aləmlərin rəbbi olan Allahı seçdi, Onun tək ilah və tək rəbb olduğuna iman gətirdi.

Tədqiqatçılar "qayğı" şərtini layiqi ilə öyrənsələr, kainatı hərəkətə gətirən möcüzəvi mükəmməl sistemin xüsusiyyətlərini izah etsələr, bu onlarda kainatı və təbiəti, kosmik sistemin əsaslandığı əlaqə və qanunları davamlı və ciddi şəkildə araşdırmaq həvəsi yaradacaqdır.

Mömin tədqiqatçı bu və ya digər təzahürdə həmin sistemin "halqa"larından birini üzə çıxarmağı bacarmazsa, istifadə etdiyi elmi metodla heç vaxt maraqlanmayacaq, təkcə məlum təzahürdə kainatı öyrənmədiyi üçün kainat sistemini də inkar etməyəcəkdir. Çünki o dərk edir ki, "tapmamaq mövcud olmamağa dəlalət etmir". Bu səbəbdən mömin tədqiqatçı öz araşdırmasını

təkrarlayacaq, bir, iki, üç... dəfə cəhd edəcək, çatışmazlığı özündə, metoddan istifadə üsulunda axtaracaq, ehtimallıq, təsadüf və ya sistemi inkardan söz açmayacaqdır.

**3) Xarici obyektiv reallığa diqqət yetirib düşünmə şərti**. Şeylər həm xəyalda, həm də reallıqda mövcuddur. Xəyalda mövcudluq təxəyyül qabiliyyətinin "çəkdiyi" təsvirlərdən ibarətdir. Xəyali təsvirləri real aləmə daşıdıqda ya o, xəyalımızdakına uyğun gəlir, yəni xarici reallıq xəyali təsvirləri təsdiqləyir; ya da gəlmir və məlum olur ki, həmin təsvirlər qeyri-dəqiqdir, yaxud reallığı əks etdirməyən xəyaldan ibarətdir:

"(Ya rəsulum!) De: "Yer üzünü gəzib (Allahın) məxluqatı (ilk əvvəldən) nə cür yaratdığına baxın..." (əl-Ənkəbut, 20);

"Məgər onlar göylərin və yerin mülkünə (Allahın göylərdəki və yerdəki səltənətinə, qüdrətinə), Allahın yaratmış olduğu hər şeyə ...diqqət yetirib düşünmürlərmi?" (əl-Əraf, 185).

İki "oxu"nu vəhdətdə götürmək bilik metodologiyası problemidir, mədəni nəticə doğurur. İki "oxu"nu vəhdətdə götürən şəxs Allahı tapacaqdır. Çünki o, Allaha möhtac olduğunu həmişə dərk edir, müstəbidlik etmir, Yer üzündə təşəxxüs satıb pozuqluq çıxarmır, azğınlıq etmir, Allahı danmır, həyatı və canlıları məhv etmir.

# İki “oxu”nun vəhdətdə götürülməsi necə mümkün ola bilər?

İki “oxu”nu vəhdətdə götürmək əməliyyatı ayələrin Qurani-Kərimə məzmun bütövlüyü və sistem möcüzəviliyi bəxş etmiş metodoloji tərtibatı ilə varlıq aləminə sirayət edən, onun hərəkətliliyinə hakim kəsilən qanunlar və qanunauyğunluqlar arasında metodoloji münasibəti aşkara çıxarmaqla başlanır. Quran elə ilahi kəlamdır ki, onun vasitəsilə varlıq dünyasını dərk edirik. Çünki Quran mütləqdir, universal və əhatəedicidir. Quran və varlıq aləmi haqqında biliklərimiz artdıqca bizdə iki “oxu”nu vəhdətdə götürmək, vəhy və kainat metodları arasında metodoloji əlaqəni üzə çıxarmaq bacarığı formalaşır.

Quran metodologiyası varlıq aləmi metodologiyasına uyğundur. Bu, Quranın fəzilətinə dair nəzəri müddəa olaraq qalmamalıdır. Bunu praktikada isbatlamaq lazımdır.

Nəzəri söz bəzən qeyri-səhih fərziyyə olmaqdan o yana keçmir. Elə isə müasir dövrdə bir müsəlman üçün birinci və ən mühüm problem iki “oxu”nu vəhdətdə götürərkən qarşılıqlı metodoloji əlaqəni aşkara çıxarmaqdır. Yəni, ilahi vəhyi kainat, həyat və insanla əlaqəli ilahi qanunauyğunluqlara əsaslanan təbiət və humanitar elmləri ilə vəhdətdə götürərkən qarşılıqlı münasibətləri müəyyən etmək lazımdır.

Quranın böyüklüyü və üstün xüsusiyyətlərindən danışmağa gəlincə, Quran, doğrudan da, möcüzəvi kitabdır, ali məziyyətləri saya-hesaba gəlməzdir. Quranın böyüklüyü, üstün xüsusiyyətləri və ecazkarlığı haqqında saysız-hesabsız kitab yazılıb. Amma həmin kitablarda Quranın kainat və ondakı hərəkətliliyi əhatə edən, onu hidayət və haqq din dayaqları üzərinə qaldıra biləcək metodologiyası izah edilməyib. Həmçinin bu kitablar məzmun bütövlüyü əsasında Quranı "oxumaq"la qanunlarının yaratdığı bütövlüyü çərçivəsində varlıq aləmini "oxumaq" arasında mövcud olan qarşılıqlı əlaqəni kəşf edə bilməmişdir. Bir çox ayə və dini konsepsiyalar müxtəlif yozumlara məruz qalmışdır. Bu yozumların çoxunda israiliyyatın izi açıq-aydın görünür[1].

[1] "Yəhudi rəvayətləri" (***israiliyyat***) bir çox sahəyə sirayət etmişdir. Bu sahələrin ən barizi təfsirdir. Yəhudi qissələrini təfsir irsimizdən təmizləmək üçün çoxlu cəhdlər edilmiş, indi də edilir. Bir tərəfdən, Şeyx Məhəmməd Hüseyn əz-Zəhəbi, Əbu Şühbət, Rəmzi Nə`naə və başqaları bu haqda əsərlər qələmə almış, digər tərəfdən isə "Təbəri təfsirindəki yəhudi qissələri" mövzusunda universitet araşdırmaları aparılmışdır və s. Amma bu cəhdlər irsimizdə yəhudi qissələrini digər rəvayətlərdən kəskin şəkildə fərqləndirmək işində çox vaxt istənilən nəticəni verməmişdir. Çünki yəhudi irsi peyğəmbərlik dövründə Ərəbistan yarımadasında şifahi mədəniyyətin ayrılmaz və əsas hissəni təşkil edirdi. Çünki bir çox yəhudi əsilli alim islamı qəbul etdikdə sahib olduqları mədəni irs onlarla birlikdə islam biliklərinə daxil edilmişdi. Hədislərin yazıya köçürüldüyü dövrdə bu irs müsəlman biliklərinin bir parçası olaraq yazıya alınmışdı. "Müqəddimə" kitabında İbn Xəldun bu vəziyyəti ciddi şəkildə təhlil etmişdir. İbn Xəldun yazırdı: "Ərəblər yazmağı bacarmırdılar, bilikləri də yox idi; onlara bədəvilik və savadsızlıq hakim idi. Şeylərin səbəbləri, məxluqatın başlanğıcı, mövcud

şeylərin sirləri haqqında nəyi isə öyrənmək istədiklərində bunu Kitab əhlindən soruşur, onlardan faydalanırdılar. Kitab əhli isə Tövratı bilən yəhudilər və onların dininə əməl edən xristianlar idi. Həmin dövrdə ərəblərin arasında yaşayan Tövrat əhli (yəhudilər) onlar (ərəblər – ***mütərcim***) kimi bədəvi (savadsız – ***mütərcim***) idilər; bildikləri Kitab əhli kütlələrinin bildiyindən artıq deyildi. Onların əksəriyyəti yəhudiliyi qəbul etmiş Həmir qəbiləsindən idi. Onlar islamı qəbul etdiklərində bildiklərini itirmədilər, əvvəlki ənənələrini qoruyub saxladılar. Ehtiyatla yanaşdıqları şəriət hökmləri ilə əlaqəsi olmayan şeylərə məxluqatın başlanğıcı, zamanın müsibət və bəlalarına aid məsələlər, (qəhrəmanlıq) dastanları və sair daxil idi. Kə`b əl-Əhbar, Vəhb ibn Münəbbih, Abdullah ibn Səlam və başqaları belə şəxslərdən idilər. Təfsir kitabları onlardan rəvayət olunmuş məlumatlarla zəngindir. Müfəssirlər belə rəvayətlərə üzüyola münasibət bəsləmişlər. Bu rəvayətlərin başlanğıcı, dediyimiz kimi, səhrada yaşayan Tövrat əhlinə gedib çıxırdı. Onlar rəvayət etdikləri məlumatların səhihliyini müəyyən edə bilmirdilər. Amma onların şan-şöhrəti hər yerə yayılmış, qədir-qiymətləri artmışdı. Çünki dində yerləri uca idi, odur ki (danışdıqları rəvayətlər) həmin günlərdə hamı tərəfindən qəbul edilmişdi".

Həmçinin Məhəmməd İzzət Dərvəzə *(Allah rəhmət etsin!)* müxtəlif klassik ərəb mənbələrindəki rəvayətləri tədqiq edərək göstərmişdi ki, lap qədim dövrlərdə yəhudi dəstələri Hicazın ayrı-ayrı ərazilərinə gəlmiş, əksəriyyəti Yəsribdə, Şam yolu tərəfində məskun salmışdı. Onların bəzisi tez-tez Məkkəyə gəlib gedir, yaxud orada qalıb yaşayırdılar. Yəhudilər ərəb dilini öyrənmiş, ərəblərin həyat tərzi və adət-ənənələrini mənimsəmiş, onların arasında özlərinə dost, müttəfiq, tərəfdar qazanmış, güc mərkəzləri qurmuşdular. Onlar dinlərə, şəriətlərə, əvvəlkilərin xəbərlərinə, inandıqları səmavi dinə, sahib olduqları, Allaha və peyğəmbərlərə aid edilən Kitaba dair bildikləri məlumatları yayırdılar. Onlar bununla ərəblər qarşısında öyünür, hər şeydə onlara kələk gəlir, bildiklərinə, nəql etdikləri biliklərə görə onların qarşısında təşəxxüs satırdılar. Halbuki bu biliklərdə təhrif və saxtakarlıq vardı. Yəhudilər

Həmçinin müasir humanitar-ictimai biliklərdə, təbiət elmlərində "itirilmiş" tərəflər, cavab gözləyən çoxlu suallar mövcuddur. Çünki bu elmlərdə vəhylə varlıq aləmini

iddia edirdilər ki, Allahın dostları və sevimli bəndələri olub, ilahi planın icraçısıdırlar. Bunun ərəblərə böyük təsiri olmuşdu. Bu səbəbdən yəhudilər nüfuz və hörmət qazanmış, hakim və münsiflərə çevrilmişdilər. Onların ayrıca dini icması, məbədləri, məktəbləri, ruhaniləri var idi. Yəhudi din xadimlərinin tayfa (qəbilə) üzərində təsiri böyük idi; məhkəmə işləri onların əlində idi; vəzifə və nüfuzdan sui-istifadə edərək, var-dövlət sahiblərinə çevrilmişdilər. Sehrlə, cadugərliklə məşğul olurdular. Sayları getdikcə çoxalmışdı. Əksəriyyəti Yəsribdə ayrıca məhəllələrdə məskən salmış, qalalar tikib divarlar ucaltmışdılar. Mədinədən kənarda, əkinlik ərazilərdə, kəndlərdə məskunlaşan yəhudilər də vardı. Onlar da yaşadıqları əraziləri hündür divarlarla əhatələmiş, qalalar tikmişdilər. Müxtəlif növ silahlar qayırırdılar; çoxlu qılıncları, nizələri, kamanları, oxları, süngüləri, qalxanları vardı. Onlar vahid dini, hərbi və siyasi blokda birləşməmiş, ayrı-ayrı qruplara bölünmüşdülər. Aralarında düşmənlik və çəkişmə vardı. Mədinədə iki ərəb qəbiləsi: Övs və Xəzrəc qəbilələri yaşayırdı; aralarında ədavət, çəkişmə vardı; bir-biri ilə müharibə edirdilər. Hər iki qəbilənin yəhudilərdən müttəfiqləri var idi. Hər dəstə öz müttəfiqləri ilə birlikdə digər dəstə və müttəfiqləri ilə vuruşurdular. Buna baxmayaraq, alçaqlıq, qorxaqlıq, rəzillik yəhudilərin təbiətinə hakim kəsilmişdi. Ərəblərlə müttəfiq olmaq, qalalarına sığınmaq yəhudilərin ayaqda qalmaq, yaşamaq vasitəsi idi. Bu məqsədlə onlar maraqlı idilər ki, Övs və Xəzrəc qəbilələri arasında çəkişmə və düşmənlik davam etsin.

Yəhudilərin əkin sahələri, tarlaları, bağları, pulları, malikanələri var idi. Ticarət edir, sənətkarlıqla məşğul olur, sələmə pul verirdilər. Bunun sayəsində onların çoxu zəngin var-dövlət sahibinə çevrilmişdi, – bunun da ərəblər üzərində onların nüfuz sahibi olmalarına köməyi olmuşdu. Bax: İbn Xəldun. Müqəddimə, III cild, səh. 935-936; Quran və müjdələyənlər; Taha Cabir əl-Ülvani. Dönüklük problemi. Qahirə: "Dar əş-şüruq", səh. 34-36.

vəhdətdə götürən metodologiya mənimsənilməyib. Düzdür, bu istiqamətdə azsaylı təşəbbüslərə rast gəlinir. Bu təşəbbüslər bu yaxınlarda "elmi möcüzəvilik" kimi tanınan şeydə gözə dəymişdir[1].

Həmişə qeyd etmişik ki, iki "oxu"nu vəhdətdə götürmək lazımdır. Bu, indiki dövrdə düşdüyümüz düşüncə və bilik böhranından çıxmağımızın müqəddəm

---

[1] **Elmi möcüzəvilik**: bildiyimizə görə, bu istiqamətdə ilk addımı İmam Fəxrəddin Razi "Qeybin açarları" təfsir-kitabını yazmaqla atmışdır. Amma bu mövzu son dövr müəlliflərinin əsərlərində daha çox yer alır. Biz bu mövzunun modern mədəniyyətin təsiri altına düşmüş şəxslərin imanını gücləndirmədə daşıdığı əhəmiyyəti qiymətləndiririk. Bu şəxslər Quranı modern mədəniyyətə müncər edirlər; ayələri yaşadıqları dövrün mədəniyyətinə uyğun şəkildə izah etmək onlara xoş gəlir və onlar Quran və modern mədəniyyətə münasibətdə keçirdikləri tərəddüddən bu yolla xilas olurlar. Buna baxmayaraq, biz narahat və tərəddüd keçirən modern mədəniyyət, yəqinlik, nisbilik və ehtimal arasında var-gəl edən elm sahələri əsasında Qurana münasibət bildirməyin tərəfdarı deyilik. "Elmi möcüzəviliy"in maksimum şəkildə etmək istədiyi şey Quranı modern mədəniyyətlə eyniləşdirmək, sonuncunu dəstəyini qazanıb, "xeyir-duası"nı almaqdır. Bu, modern mədəniyyətə xidmət etməkdir. Bu, Qurana xidmət etməkdən çox onu nisbiləşdirməkdir. Çünki belə yanaşma "Quranın mütləqliyi" konsepsiyası ilə üst-üstə düşmür, modern mədəniyyətin ehtimal ifadə edən, nisbi təbiəti bu müqəddəs kitaba şamil edilir. Əgər bir neçə əsr ərzində elmdə yəqinlikdən nisbilik və ehtimallığa, yaxud donuq səbəbiyyətdən çevik səbəbiyyətə keçid baş veribsə, onda Qurana modern mədəniyyəti müncər etsək, bu kitabın başına kim bilir nələr gələr?!
Amma "iki "oxu"nu vəhdətdə götürmə" və "Quranın bilik metodologiyası" konsepsiyaları bunun əksinə olaraq, modern mədəniyyəti, elmləri və metodologiyasını düzgün qiymətləndirmək imkanı verir.

şərtidir. Ona da diqqəti cəlb edirik ki, Quran, kainat və insan arasında metodoloji əlaqə yaratmaq lazımdır. Quran bütün peyğəmbərlərin gətirdiyi ilahi vəhyin qaydalarını özündə ehtiva edir. Kainat ilahi kəlamın təcəssüm olunduğu, Allahın iradəsinin öz əksini tapdığı yerdir. İnsan isə yer üzünü abadlaşdırma işində vəhylə yola çıxsın deyə xəlifə təyin edilmişdir. Bununla da, bəşəri təsəvvürün "halqalar"ı tamamlanır, digər elementləri aşkara çıxır, qeybin təbiət və insanla əlaqəsi məlum olur, insan dünyanı axirətdən, yaxud ilahi təlimləri pozitivist fəlsəfi ideyalardan ayırma faciəsindən, bu ayırmanın doğurduğu problemlərdən xilas olur.

Quran, kainat və insan arasındakı metodoloji həmhüdudluğu müəyyən etmək üçün Quran və elmləri, bilikləri vəhdətdə götürməklə qarşıya qoyulmuş vəzifəni icra etmək mümkün olacaqdır.

Bu səbəbdən Quran metodologiyası aşağıdakı əsaslar üzərində təsis edilmişdir:

**1. İslamda koqnitiv dünyagörüşünün yenidən formalaşdırılması**. Bu dünyagörüşü Quranda göstərilmiş konkret əqidəyə, bu əqidədən irəli gələn sağlam islam təsəvvürünə əsaslanır. Bu dünyagörüşünü yenidən formalaşdırmaq ona görə lazımdır ki, "islam bilik sistemi"nin nə olduğunu izah edə bilək. Bu sistem "taleyüklü universal suallar"a cavab tapmağa, klassik dövr filosoflarının "böyük düyün" adlandırdıqları şeyi həll etməyə qadirdir. Həmçinin bu sistem sistemli-metodoloji öyrənməni təmin edəcək tənqidi-koqnitiv bacarıq formalaşdıracaq, koqnitiv-metodoloji "istehsal"ı təşkil

edəcəkdir. Belə "istehsal" əsasında koqnitiv yaradıcılıq və izah meydana çıxacaqdır.

**2. Müxtəlif sahələrdə islam metodologiyasının əsalarının yenidən təsis edilməsi.** Bunun üçün islam metodologiyasını Quranın bilik metodologiyası əsasında nəzərdən keçirmək, onda onun (Quranın – ***mütərcim***) nuru və hidayəti ilə dəyişiklik aparmaq lazımdır. Naqis və birtərəfli "oxuma"lar nəticəsində bu metodologiyada çoxlu çatışmazlıqlar meydana çıxmışdır. Belə naqis "oxumalar" Quranın "hissə-hissə edilməsi" ilə nəticələnmiş, keçmişdə və indiki dövrdə insan və varlıq aləmi ondan (Qurandan – ***mütərcim***) təcrid edilmiş halda öyrənilmişdir. İslam metodologiyasının əsasları yenidən ona görə təsis edilməlidir ki, müsəlman düşüncəsi onun fəaliyyətini iflic etmiş fikri "xəstəliklər"dən xilas olsun. Buraya qeyb aləmi ilə real dünyanın əlaqəsi, ağıl və iman əlaqəsi, səbəb və nəticə əlaqəsi və s. məsələlərdə özünü göstərən təhriflər daxildir.

**3. Qurana münasibət metodunun təsis edilməsi və analitik-metodoloji dünyagörüşü əsasında onu öyrənməyin şərtlərinin müəyyənləşdirilməsi**. Nəzərə almaq lazımdır ki, Quran metodun, əqidənin, şəriətin, biliklərin təsisedici mənbəyidir, mədəni-abadlaşdırıcı şahidliyin elementlərinin təyinedicisidir. Bəlkə də, Quran elmlərinin nəzəri əsaslarını bu məqsədlə yenidən müəyyən etmək, Quran mətnlərini tədqiq edərkən alimlərin müxtəlif dövrlərdə təsis etdikləri ənənəvi biliklərin bəzisindən imtina etmək lazım gələcəkdir. Ümmətin mövcud və gələcək ehtiyaclarını ödəmək

məqsədilə Qurana əsaslanmaq ehtiyacı həmişə mövcud olmuşdur. Ərəb insanı Qurani-Kərimi quruluşunun ilk dövr xüsusiyyətləri əsasında dərk etmişdi. Buraya rasional, mənəvi və linqvistik xüsusiyyətlər daxildir. Bu xüsusiyyətlər başlanğıcda ibtidai olub, fikri və sosial baxımdan məhdud idi. Əsasən linqvistik format, şifahi şəkildə ötürülən biliklər nəzərə alınırdı. Nəticədə əsas diqqət rəvayətlərin səhihliyinə, məlum üsullar əsasında rəvayətin mötəbərliyinin müəyyənləşdirilməsinə verilirdi. Dövrün rəvayətləri təsdiqləmə üsullarına aid biliklər üstün biliklər hesab olunurdu. Hicri II əsrdə Quran mətnləri və hədislərə aid nəqli biliklər və elmlərin rəsmi şəkildə yazıya köçürülməsi başlandıqda yuxarıdakı xüsusiyyətlər yazıya köçürülmüş bilik və elmlərdə də özünü göstərmişdi. Bununla yanaşı, bu mərhələdə rasional, bəlağət, dilçiliklə əlaqəli xüsusiyyətlər meydana çıxmışdı. Həmçinin "hissə-hissə" qrammatikasını cümlə və tərkibləri öyrənən dilçilik sahəsi ilə əvəzləyən zəmin yetişmişdi. Təəccüblü deyildir ki, "təfsir"ə aşağıdakı tərif verilmişdi: "Quran sözləri və söz-formalarının vəziyyətlərini bilmək". Bu həmin dövrdə geniş yayılmış metodologiya idi. Bunun üçün bu metodologiyanın doğurduğu fəhm həmin dövr və sonrakı dövrlər üçün məqbul və kafi sayılırdı.

İndiki dövrə – şeylərin (hadisələrin) metodoloji baxımdan dərk edən təfəkkürün hakim olduğu, şeylər arasında təhlili-tənqidi üsullarla tənzimləyici əlaqələrin axtarıldığı, müxtəlif mədəni mövzularla əlaqələndirilməyə cəhd göstərildiyi dövrə gəlincə, dini mətnləri dərk ilə əlaqəli üsul və biliklər inkişaf etdirilməli, Qu-

ran vəhy və varlıq aləmini vəhdətdə götürən metodla öyrənilməli, Quranla kainat arasındakı metodoloji həmhüdudluq nəzərə alınmalı, həmin mərhələlərlə əlaqəli təfsir, təvil və ənənənin bir çox tərəfi saf-çürük edilməlidir. Edilməlidir ona görə ki, yəhudi rəvayətləri ilə təfsirin, Quran elmlərinin sıx əlaqəsinin doğurduğu mənfi nəticələr aradan qaldırılsın.

Yaşadığımız dövrdə meydanoxumuşluğu və möcüzəviliyi aşkar olsun deyə Qurandakı metodoloji-ictimai cəhət xüsusi şəkildə tədqiq edilməlidir. Quranın bu cəhətini bütün tərəfləri ilə tədqiq edib üzə çıxarsaq, onun nisbi deyil, mütləq təbiəti hamıya məlum olacaqdır.

Hər bir halda, biz "elmi möcüzəvilik" anlayışının üstündən keçib gedirik, çünki o, dövrün mədəniyyətini Qurana müncər etmir. Bu isə bizim məqsədimiz deyildir.

**4. Məlum metodoloji dünyagörüşü əsasında Sünnəyə münasibət metodikasının təsis edilməsi**. Nəzərə alırıq ki, Pak Sünnə Quranı izah edən mənbədir, ondakı təlimləri tətbiqdir. Sünnəyə münasibət metodikası üsul və şəriətin tətbiqinin təfərrüatlarını, bilik qaydalarını, mədəni-abadlaşdırıcı şahidliyin elementlərini ehtiva edir.

Peyğəmbərin dövründə insanlar onunla birbaşa görüşür, ünsiyyət yaradır, dediyi və etdiyini özlərinə nümunə götürürdülər: "Həccin ayinlərini məndən öyrənin"[1]; "Məni necə namaz qılan görmüşsünüzsə, elə

[1] Hədisi İmam Müslim rəvayət etmişdir. Bax: Səhihi-Müslim, II cild, səh. 943, hədis № 1297.

də namaz qılın"[1]. Peyğəmbəri nümunə götürmək və yolu ilə getmək onun əməli-təcrübi fəaliyyətinə, real həyatına əsaslanırdı. Peyğəmbər *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* ilahi kəlamı real həyatla əlaqələndirmək üçün davranışları ilə Quranı ifadə edirdi. Peyğəmbərin izahları və əməli fəaliyyəti Quranla real dünya arasındakı məsafəni götürmüş, onları bir-birinə pərçimləmişdi. Təbii ki, bu vaxt yaşadığı cəmiyyətin mədəni, intellektual səviyyəsi, düşüncə və bilikləri, təsəvvürləri, dövrün elmi, mədəni və linqvistik bilikləri daxilində real ictimai-ideoloji şərtlər nəzərə alınmışdı. Bu səbəbdən rəvayətçi səhabələr *(Allah onlardan razı qalsın!)* Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* həyatına dair xırda detalı belə nəzərdən qaçırmır, özlərindən sonrakılara çatdırmağa çalışırdılar. Çünki bu, onların dövründəki müxtəlif problemləri tənzimləyən yeganə alternativ metod idi. Məhz buna istinadən sonrakı nəsillər tətbiqi metodu müəyyən edə bilərdilər. Bu səbəbdən rəvayətlər (hədislər) bu qədər çoxdur: Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* sözləri, əməlləri və təsdiqləmələrindən ibarət nəhəng hədis materialı! Belə müfəssəl informasiya əsasında sonrakı nəsillər Peyğəmbəri nümunə götürmüş, Quranın yolu ilə getmək üçün metod (üsul) müəyyən etmişlər. Bu nəsillər Peyğəmbərin yatdığında, ayıq olduğunda, müharibəyə çıxdığında, sülh şəraitində, hökm kəsdiyində, rəhbərlik etdiyində, fitva verdiyində, adi bəşəri fəaliyyətində söylədiyi sözləri, etdiyi əməlləri,

[1] Hədisi İmam Buxari rəvayət etmişdir. Bax: Came əs-səhih, səh. 605, hədis № 226. Həmçinin bax: İmam Razi. əl-Məhsul / tədqiq edib çapa hazırlayan: Taha Cabir əl-Ülvani. III cild, səh. 243, 250.

verdiyi təsdiqləri özlərinə nümunə götürmüşdülər. Onlar bu vaxt elə üsul təsis etmişdilər ki, Peyğəmbərin yolunun – Sünnənin nə olduğunu, yaşadığı dövrün xüsusiyyətlərini müəyyənləşdirə bilmişdilər. Təbii ki, Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* yaşadığı dövr – reallıq yaşadığımız dövrdən öz problemləri, ictimai münasibətləri, keyfiyyət və kəmiyyətə görə fərqlənir.

Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* yolu (***Sünnə***) və həyatı (***Sirət***) Quran metodunu onun yaşadığı dövrlə əlaqələndirən əyani körpü idi. Odur ki Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* yaşadığı, fəaliyyət göstərdiyi, dəyişdirmək istədiyi dövrü başa düşmədən bir çox hədisi "həzm etmək" çox çətindir. Bu səbəbdən həmin dövrü öyrənmək, həmçinin hədislərin deyilmə səbəblərini, onlarla əlaqəli hadisələri tədqiq etmək lazımdır.

Bir-biri ilə mübahisə edən şəxslər mümkündür ki, bu hədisləri ayrı-ayrı kəlamlar (sözlər) kimi təqdim etsinlər və bu kəlamlar da bir-birinə zidd görünsün. Aralarındakı metodoloji əlaqə ortaya çıxarılmazsa, bu kəlamlar müxtəlif məzhəb imamlarının sözlərini xatırladacaqdır.

Quran nazil olduğu dövrdə müsəlmanlar Peyğəmbəri *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* birbaşa özlərinə nümunə götürür, onun yolu ilə gedirdilər; onlara yamsılamaq və ya təqlid etmək əmr olunmamışdı və onlar təqliddən uzaq idilər. Nümunə götürmək və yol seçmək üçün Peyğəmbərin *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* – nümunə götürülən və yolu ilə gedilən şəxsin metodunu – yolu-

nu bilmək zəruri idi. Bu üzdən Peyğəmbərə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* ondan əvvəlki peyğəmbərlərin yolu ilə getmək əmr olunmuşdu: "Onlar (peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get..." (əl-Ənam, 90). Yəni, ey Peyğəmbər, onların itaət, dəvət, təbliğ, izah və tətbiq metodlarını, üsullarını mənimsə! Peyğəmbərə *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* onları təqlid etmək əmr edilməmişdi. Bu da səhabələrə imkan vermişdi ki, Peyğəmbəri *(Ona və ailəsinə Allahın xeyir-duası və salamı olsun!)* özlərinə canlı nümunə götürsünlər. Bu canlı nümunə yaşadıqları dövrdə, mövcud şərtlər daxilində onlar üçün "metod" (yol, üsul) idi. Biz bunu Həzrəti Əbubəkr və Həzrəti Ömərin hədislərə münasibətində, Möminlərin anası Həzrəti Aişənin, fəqih və qare səhabələrin *(Allah onlardan razı qalsın!)* mövqeyində müşahidə edirik.

Nümunə götürmək və yol tutub getmək rəvayət olunan sözlü hədislərə münasibət formalarını meydana gətirdi. Bu işdə uğur qazanan da oldu, yoldan azan da! Allahın müvəffəq etdiyi şəxslər hədisləri dəqiq fəhmlə dərk etdikləri halda, bədbəxtlər bundan kənarda qaldılar. Sonrakı dövrdə bəzi şəxslər Qurana natamam münasibətin, hədislərin kontekstdən qopuq şəkildə, ayrı-ayrı kəlamlar olaraq rəvayət edilməsinin doğurduğu mənfi halları yüngülləşdirmək ehtiyacı hiss etdilər. Odur ki batini yozumlar, rəmzi izahlar meydana çıxdı. Elə güman olunurdu ki, belə izahlarla hədisləri hərfi-hərfinə başa düşməkdən, onları natamam anlamaqdan xilas olmaq mümkündür. Bəziləri də hədisləri rədd etməklə asan yol tutdu. Həmçinin bəzi yozumlar məsələni daha

da qəlizləşdirmişdi. Bundan sonra "Sünnənin qanunvericilik statusu" problemi meydana çıxdı; bütövlükdə hədislərin, yaxud müəyyən hədislərin qanunvericilik (dəlil olmaq) statusu ətrafında müzakirələr başlandı. Bu və digər problemlərdən, mənfi nəticələrindən hələ də əziyyət çəkirik. Əgər Peyğəmbərin nə dediyinə, nə etdiyinə, nəyi də təsdiqlədiyinə münasibətdə Quran metodu işlənib hazırlansaydı, hədislərə münasibət sistemli hal alar, ayrı-ayrı faktlar ümumi anlayışlar daxilində nəzərdən keçirilər, ayrı-ayrı problemlər bir metod daxilində öyrənilərdi. Çünki metod məqsədi, məzmunu açmağa zəmin hazırlayır.

Müasir təfəkkür hər bir vəziyyətdə şeylər və hadisələrin obyektiv tənzimləyicisini tapmağa çalışır, müxtəlif cəhətləri özündə birləşdirən bitkin metodologiya təsis etməyə cəhd göstərir; bu metodologiya metodoloji təhlilə, puça çıxarmağa, tənqid və izaha əsaslanır. Bu təfəkkür sözügedən metodologiya əsasında dini mətnlərə, ümumbəşəri və məhəlli problemlərə münasibət bildirir. Bu metodologiya ilə Quranın məqsədlərinə, ali dəyərləri və universalilərinə nüfuz etmək, donuq keçmişə, batini yozumlara, dəyişdirmə səciyyəli reformist cəhdlərə ehtiyac hiss etmədən Sünnəni obyektiv şəkildə başa düşmək mümkündür. Reformist cəhdlər keçmişi indiyə tətbiq etmək, onu indiki dövrdə məhsuldar hala gətirmək cəhdləridir. Bu, keçmişi yeni qiyafədə ifadə etməkdir.

**5. İslam irsinin yenidən öyrənilməsi**. Bu məqsədlə islam irsini tənqidi-analitik üsulla tədqiq etmək, Quranın təsdiq və nəzarət metodu əsasında nəzərdən

keçirmək lazımdır. Belə olarsa, biz indiki dövrdə irsimizə – ənənəmizə münasibətimizi müəyyən edən üç "dairə"dən çıxmış olacağıq: 1) ənənəni mütləq şəkildə rədd etmək dairəsi; 2) ənənəni qeydsiz-şərtsiz qəbul etmək dairəsi; 3) metodoloji olmayan təmizləmə (saf-çürük etmə) dairəsi. Bu üç dairədə qaldıqca ənənəmizə layiqli münasibət bəsləyə, qəti addımlara ata bilməyəcəyik.

**6. Müasir bəşəri irsə münasibət metodologiyasının müəyyən edilməsi**. Qərb irsi və ya Qərb fikri adı ilə tanınan bu irsə münasibətin metodikası işlənib hazırlanarsa, müsəlmanların Qərb düşüncəsinə baxışında dəyişiklik yaranar; bu vaxt o, ya cahilcəsinə təkəbbür göstərib mütləq şəkildə rədd etməkdən, ya görməmişcəsinə qəbul etməkdən, ya da kor-təbii şəkildə, bitərəfliyini itirərək saf çürük etməkdən xilas olacaqdır.

Yuxarıdakı altı bəndi "Biliyin tövhid metodu"nu təsis etmək istiqamətində atılacaq addımlar hesab edə bilərik. Çünki biz ilk dəfə olaraq özümüzü elə bir qlobal vəziyyət qarşısında tapırıq ki, biliyə, elmə, elmi kəşf və nailiyyətlərə Yaradan, kainat və insan arasındakı münasibətləri kəsib atmaq funksiyası yükləyir. Bu o şəkildə baş verir ki, varlıq aləminə dair dinə, xüsusən də islam dünyagörüşünə zidd görünən təsəvvürlər yaradılır. Fərqi yoxdur: bu təsəvvürlər həqiqəti əks etdirir ya yox; bu təsəvvürlərlə mübarizə aparmaq üçün ənənəvi konsepsiyalarımızı saf çürük edib onlara uyğunlaşdırmaq, "Bu kəşflər haqqında Quranda çoxdan yazılıb" – deyərək lovğalanmaq, qarşı tərəfin iddialarını

"küfrdür!" iddiası ilə rədd etmək problemi həll etmir. Təbiət elmlərinə baxışımız ilahiyyatçılıq və ya ruhanilik baxışı olmamalıdır!

Bizdən başqalarını yamsılamaq tələb olunmur. Elm və nailiyyətləri qarşısında onların qazandığı təcrübə bizimkindən fərqlənir. Quran ilahiyyat olsaydı, onda ancaq bir cəhətin öyrənilməsinə icazə verilərdi. Yəni, bizə ancaq Allahı "oxumaq" əmri gələrdi. Amma Quranda iki "oxu!" əmri mövcuddur.

Biz elmlə mübarizə aparmamışıq, onu rədd edib, alimləri öldürməmişik. Çünki yazılı "kainat"dakı[1] vəhyin təbii kainatdakı vəhyin eynisi olduğunu bilirik; hər birinin öz "oxunma" üslubu, metodu vardır. Elmə aid edilən təhriflər, yoldanazmalar meydana çıxarsa, vəzifəmiz elmi onlardan təmizləməkdir! Yox, təfsir və yozuma (***tə`vil***) aid edilən təhriflər meydana çıxarsa, onda dini mətnləri onlardan qorumaq lazımdır. Bu, "iki "oxu"nu vəhdətdə götürmə"nin əsasını əmələ gətirir. Əgər din əvvəllər ancaq sırf rasional-pozitivist fikirlərə qarşı çıxıb, müasir tətbiqi elmlərlə silahlanmamışdırsa və nəticədə ənənəvi pozitivizmi ləğv edən ideologiyalar yaranmışdırsa, bizdən tələb olunan şey elmi bu ideologiyalardan xilas edib təmizləmək, dinin mətnlərin xidmətinə verməkdir. Bununla da, "oxuma" düzələcək, iki "oxu"nu vəhdətdə götürmək mümkün olacaqdır.

[1] Qurani-Kərim nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

# Vəzifə qurancasına, həm də ümumbəşəridir

Bu vəzifə, yəni Quranın bilik metodologiyasını aşkara çıxarıb izah etmək vəzifəsi ümumbəşəri olub, bütün bəşəriyyəti maraqlandırır və bütün dünyaya aiddir. Bəziləri onu ayrıca coğrafiyanın – müsəlman coğrafiyasının vəzifəsi hesab etsə də, biz indiki dövrdə dünyanın ayrılmaz parçası halına gəlmişik. Özü də onun mədəni qəsbkarlığı ilə deyil! Bu hal keçmişdə – XVIII-XIX əsrlərdə baş vermişdi. İndi isə təcrübi-tətbiqi elmin qəsbkarlığı nəticəsində dünyanın ayrılmaz hissəsinə çevrilmişik. Bu səbəbdən tələb olunur ki, Quranın bilik metodologiyasını dünyaya car çəkmək üçün zəhmət çəkib tər tökək. Özü də elə bir zəhmət ki, Fransa inqilabından sonra qapımızı döyən ideoloji qəsbkarlıqla mübarizədə atalarımızın çəkdiyi zəhmətə bərabər olsun! Həmin vaxt məhdud əqli imkanlarla intellektual vəziyyətlə mübarizə aparırdıq.

İndi isə empirik elmi intellektlə üz-üzə gəlmişik. Bu intellekt bütün təbiət və humanitar elmlərə empirik (təcrübi) arqumentlilik məzmunu kəsb etdirib. Ya aciz teoloji müdafiə mövqeyi seçəcək – aramızda bu yolu seçənlər vardır, – ya da universal Quran dünyagörüşü ilə müasir mədəni nizamı pozacağıq! Bu təcrübi elmlər öz başlanğıc prinsiplərində hələ də “büdrəyir”, “natamam”la məhdudlaşır, bütöv universallığı nəzərə almır. Söhbət vəhydə gizlənmiş universallıqdan gedir:

“Şübhəsiz ki, (rəbbindən) özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəyində ancaq bir təkəbbür (böyüklük iddiası, sənə qarşı həsəd) vardır. Onlar heç vaxt Ona (böyüklüyə, peyğəmbərlik dərəcəsinə) çatmayacaqlar. Sən Allaha pənah apar. Həqiqətən, O, (hər şeyi) eşidəndir, görəndir!

Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz!” (Ğafir, 56-57).

Vəzifə ümumbəşəri olmaqla yanaşı, həm də Quranın vəzifəsidir; dini itələşmə, beynəlxalq mədəni nizamların iflası, peyğəmbərliyin başa çatması, yerli və beynəlxalq müstəvidə ideoloji böhranların meydana çıxması – bütün bunların qarşısında ancaq Qurani-Kərim tab gətirə bilir. Tab gətirməlidir ki, ki, mütləq vəhy kitabı olduğu üçün hərtərəfli şəkildə mübarizə aparsın, başqalarının verməyə heç nəyi qalmayanda o verməyə, bəxş etməyə davam etsin. Bu mübarizə bizim üçün eksperimental mübarizədir. Özü də bu mübarizədə biz Quran metodologiyasını dərketmə səviyyəmizi, bu metodologiya ilə mədəni proseslərə istiqamət verə bilmək bacarığımızı, “iki “oxu”nun vəhdətdə götürülməsi” yolu ilə elmlərdəki müxtəlif üsulları böhrandan çıxarmaq gücümüzü ortaya qoymalıyıq.

Müasir elm təzahürləri öyrənmədə özünün ən inkişaf etmiş dövrünü yaşayır. Təzahürlərə baxış klassiklərin baxışından köklü surətdə fərqlənir. Əvvəllər təzahürləri adi gözlə müşahidə edir, daha sonra altı hiss orqanı ilə mühakimə yürüdürdülər. İndi isə elektron mikroskoplar hissi idrakın imkanlarını genişləndirmişdir,

təzahürlərə dair yeni anlayışlar peyda olmuşdur. Əgər əvvəlki alimlər atomu gözlə görülən qum dənəciyi və ya torpaq hissəciyi olaraq başa düşürdülərsə, bu gün atom dedikdə mikroskopik atom başa düşülür. Görülən atom anlayışının ehtiva etdiyi məna görünməyən atom anlayışının ifadə etdiyi məna ilə əvəzlənmişdir:

"And içirəm gördüklərinizə;

Və görmədiklərinizə..." (əl-Haqqə, 38-39).

Bu günün atomunu parçalayır və ondan enerji alırlar. Bu məqamda biz Qurani-Kərimdəki dəqiqlik və hikməti daha yaxşı başa düşürük:

"(Loğman öyüd-nəsihətinə davam edərək) dedi: "Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) **bir xardal dənəsi ağırlığında** olsa da, bir qayanın (daşın) içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər (onun haqq-hesabını çəkər). Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), (hər şeydən) xəbərdardır!" (Loğman, 16).

Keçmişdə tarixi dövrlər dedikdə ancaq gecə və gündüzün əvəzlənməsindən yaranan zaman kəsiyi başa düşülürdü. Bu gün isə dövr dedikdə təkcə kəmiyyət deyil, həm də keyfiyyət dəyişikliyi də nəzərə alınır. Məhz bu, ilk növbədə, keyfiyyət dəyişikliyinə əsaslanan müasir elmi səbəbiyyəti izah edir.

# Quran metodologiyası və bəşəriyyətin taleyi

Deməli, Quran metodologiyası problemi təkcə zərurət və ya sırf fəlsəfi tələbat deyildir. Çünki o, "iki "oxu"nun vəhdətdə götürülməsi"ni təklif etməklə bəşəri düşüncəni insan və təbiəti heçə sayan teologiya böhranından xilas edəcək arqument təqdim edir. Eyni vaxtda, o, elmi Yaradıcıdan ayıran hər bir şeyi pozitivist situasiyadan çıxarır. Hər iki metodun öz təsiri, insan həyatına tətbiq forması, mədəni sistemi, prinsip və qanunvericilik bazası vardır. Diqqətlə öyrənsək, görəcəyik ki, Quran metodologiyası təkcə müsəlmanların deyil, həm də bütün bəşəriyyətin halını islah etməyi qarşısına məqsəd qoymuş universal (ümumbəşəri) mədəni alternativə ən mühüm müqəddimə rolunu oynaya bilər. Bunun üçün Qurani-Kərimə dair çoxlu ciddi və özünəməxsus tədqiqatlar aparmaq lazım gələcəkdir. Analitik fəhmlə, elmi-metodoloji və universal prizmadan baxmaqla bunu həyata keçirmək olar.

Quran metodologiyasının əsas məqsədi Quranı yolgöstərən (hidayət) kitabına, varislik (xəlifəlik) bələdçisinə, nicat cığırına, abadlaşdırma bazasına çevirməkdir.

Quranı vahid struktur və bir bütöv olaraq metodoloji formada öyrənməsək və bu cür fəhm maddi təzahürləri, bütöv sistematik fəaliyyət qanunauyğunluqlarını öyrənmə metodumuzda öz əksini tapmazsa,

sağlam mədəniyyət (cəmiyyət) təsis etmək mümkün olmayacaqdır.

Dünyanın müasir metodologiyasına çoxluğu bütövə aid etmək, gizli əlaqə və qanunauyğunluqlar tapmaq məqsədilə təzahürləri təhlil etmək xasdır. Bu metodologiya izah etməklə kifayətlənmir.

Quran öz universal struktur bütövlüyü ilə bu cür metodoloji fəhmə münasibdir. Belə ki biz Quranı alimlərin böyük kainatı öyrənərkən istifadə etdikləri metodologiya olaraq öyrənməliyik. Həmçinin, deyildiyi kimi, aktiv, ümumbəşəri və elmi təfəkkür ilə Quran metodologiyası və kainatın qanunauyğunluqları və metodoloji xüsusiyyətləri arasındakı metodoloji həmhüdudluğu dərk etmək mümkün olacaqdır.

Şübhə yox ki, dünyanın həll edib aradan qaldırmalı olduğu bir böhran mövcuddur. Bu böhran bütün aydınlığı ilə onda özünü göstərir ki, müasir ümumbəşəri elmi təfəkkür dini (səmavi) kitabları rədd edir. Hətta bu kitablardakı bəzi anlayışlara dözümlü yanaşsa da, onlardakı metodologiyaya bütövlükdə yox deyir, onlardan hər hansı birinin struktur bütünlüyünü dərk etmir, ondakı məqsədyönlü formatı qavraya bilmir. Müasir elmi təfəkkür təkidlə bildirir ki, istənilən dini kitab iman məsələləri ilə, metafizik – qeyb mövzuları ilə kifayətlənməlidir.

Beləliklə, iki "oxu"nu – qeyblə reallığı vəhdətdə götürmək bu elm təmsilçilərinin nəzərində qeyrinmümkün görünür. Onlara görə, madam ki dini kitablarda deyilənləri laboratoriyada təcrübə ilə yoxlamaq mümkün deyildir, onda qeyblə reallığı vəhdətdə

götürmək utopik arzu olaraq qalacaqdır. Yəni, səmavi kitablarda deyilənləri elm və ya bilik mənbəyi olaraq götürmək olmaz; əks halda, elm təhrifə uğrayar, elmi nəzəriyyələr tənəzzül edər. Səmavi kitablarda göstərilmiş gözəgörünməz varlıqlara, müasir empirik elmin yoxlamalarına uyğun düşməyən tarixi əhvalatlara elmi məzmun kəsb etdirmək mümkün deyildir. Bu səbəbdən YUNESKO biliyə bu cür tərif vermişdir: "Hisslərə və təcrübəyə müvafiq düşən hər bir məlum!"

Belə bir yanaşma "iki "oxu"nun vəhdətdə götürülməsi" məsələsini nəzərdən qaçıran səhv fəhmdən irəli gəlir. "İki "oxu"nun vəhdətdə götürülməsi"ndə məqsəd təkcə "ikinci oxu" ilə kifayətlənməyən universal fəhmi ortaya çıxarmaqdır. Varlıq aləminin universal şəkildə başa düşülməsini təmin etməkdir əsas məqsəd! Əgər "ikinci oxu" ilə kifayətlənsəydik, varlıq aləmi haqqında ancaq pozitivist düşünər, pozitivist konsepsiyalardan çıxış edərdik. Eləcə də müasir elmi dialektikadan, onun ifadə etdiyi nisbilik və ehtimaldan çıxış etməklə təzahürləri ayrı-ayrı (naqis şəkildə) nəzərdən keçirən anlayışlar təsis edərdik.

Bu yerdə birtərəfli ikinci "oxu"nun təhlükəli tərəfləri ortaya çıxır. Çünki belə olduqda biz universal deyil, pozitivist tərzdə, həm də natamam düşünürük. Amma ikinci "oxu"nu birinci "oxu" ilə vəhdətdə götürsək, məhdud natamam yanaşma müstəvisindən universal və bütöv yanaşma müstəvisinə adlayarıq. Yəni, görünən və görünməyən fenomenləri öyrənən bütöv və universal yanaş tərzini mənimsəmiş olarıq. Qeyb və ya metafizik olan hər şeyi rədd etmək birinci "oxu"nu – yaradıcı

Allahın adı ilə kainatı "oxumağ"ı rədd etməkdir. Vəhy bir bütöv olub hissələri (natamam olanları) özündə birləşdirir. Birinci "oxu" bütün qeyb və metafizik məsələləri təkcə iman gətirilməsi lazım olan aksiomlar olaraq deyil, metodologiyanın əsas hissəsi olaraq nəzərə alır. Birinci "oxu"ya görə, bu metafizik məsələlər kosmik mövcudluğa ikinci "oxu"nun məlumatlarından daha çox dəlalət edir. Bu isə məxluqata bitkin kosmik məzmun kəsb etdirməkdir.

Qeyb məsələlərini gündəlikdən çıxarmaq (və ya istisna etmək) birinci "oxu"nu gündəlikdən çıxarmaqdır. Birinci "oxu"nun əlamətlərinə kainat və digər varlıq kateqoriyalarında rast gəlmək mümkündür. Bu "oxu" bəzilərinin iddia etdiyi kimi "keçmişdəkilərin uydurması" deyildir; əksinə, çox saylı arqumentlərin isbatladığı sabit məsələdir. Əgər ondan imtina etsək, bu bizi birtərəfli pozitivist ikinci "oxu"ya aparıb çıxaracaqdır. Bu da öz növbəsində kainatın tarixini həqiqi məzmunda öyrənməyimizə mane olacaqdır.

Birinci "oxu" bizdən təkcə Allahın mövcudluğuna inanmağı tələb etmir, həm də Allahın ilahiliyini, kosmik formalaşma və insan taleyinin kosmik yaradılma ilə əlaqəsinin İlahi Kəlamın nəzarətində olduğunu bizə göstərir. Yəni, yaratma metodologiyası qələmlə öyrəndiyimiz obyektiv şeylərin metodologiyasını özündə ehtiva edir. Beləliklə, biz yaradıcı Allahın yaratma metodologiyasını kainatı öyrənərkən qələmin müşahidə edib yazıya köçürdüyü şeylərin metodologiyası ilə vəhdətdə götürürük. Bununla da, iman məsələsi gündəlikdən çıxarılmır, hərtərəfli yanaşma meydana çı-

xır; əks halda, subyektiv bitərəfliyin özünü göstərdiyi, birinci "oxu"nun sərf-nəzər edildiyi ikinci "oxu" əsas götürüləcəkdir.

Dünyanın mədəni-ideoloji böhrandan xilas olmağı üçün varlıq dünyasını həm metafizik məzmunda öyrənmək lazımdır. Yəni, kainatın yaranması və taleyində Allahsız düşünmək problemi həll etməyəcəkdir. Bu, birinci "oxu"nun vəzifəsidir. Bəziləri birinci "oxu"nu elmi dairələrdən uzaqlaşdırmağın tərəfdarıdır. Çünki bu "oxu" onların gündəlikdən çıxardıqları vəhyi əsas götürür. Bizim öhdəmizə düşən isə bəşəriyyəti ən yaxşı şəkildə vəhyə qaytarmaqdır.

Vəzifə ağır, problem isə böyükdür. İlk vəzifə iki "oxu"nu vəhdətdə götürmək, məqsəd isə bəşəriyyəti xilas etməkdir. Etməkdir ona görə ki, yer üzündə xeyir qələbə çalsın, haqq bərqərar olsun, sülh hökm sürsün. Quranın yolu budur! Qoy bütün yer üzü iman və Quranın nuru ilə işıqlansın!

Məqsədyönlü elmi dialoqları, metodoloji addımları davam etdirməyimiz Quranın yolunu kəsmiş əngəllərin aşılmasına gətirib çıxaracaqdır.

Müxtəlif ixtisas sahiblərinin Quranın bilik metodologiyasına əhəmiyyət verməlıri bu metodologiyanın bir sıra cəhətlərinin aşkarlanması, dəqiqliyi və obyektivliyi, əsas götürülməsinin zəruriliyi məsələsində alim və tədqiqatçıların qane edilməsi ilə nəticələnəcəkdir.

"...Allah Öz işində (əmrində) qalibdir (istədiyini edəndir), lakin insanların əksəriyyəti (bunu) bilməz!" (Yusif, 21)

# Son söz

Bu, "iki "oxu"nun vəhdətdə götürülməsi" problemidir. İstəsəniz, onu nəzəriyyə də adlandıra bilərsiniz. Bu probleme Haris əl-Mühasibi, Əbu Talib əl-Məkki, İmam əl-Hərəmeyn, Farabi, Qəzali, Razi, İbn Həzm, Qazi Əbdülcəbbar əl-Həmədani kimi böyük alimlər münasibət bildirmişlər. Həmçinin üsulşünaslıq ədəbiyyatında bu problemə müəyyən qədər toxunulmuşdur. Gəlmə ideyaların "ideoloji yaxınlaşdırılması" cərəyanları çərçivəsində bəzi islahatçılar, o cümlədən Şeyx Məhəmməd Əbduh, Məhəmməd İqbal, Mustafa Səbri və başqaları bu problemə diqqəti cəlb etmişlər. Amma bu problemə sistemli və mütəmadi şəkildə öyrənilmək nəsib olmamışdır. Müsəlman düşüncəsi ilə "elmi möcüzəvilik" adlandırılan şeyin metod olaraq təsis edilməsi arasında maneələrin yerləşdirilməsi artmışdır. Oxucumuz yuxarıda deyilənlərlə tanış olduqda "iki "oxu"nun vəhdətdə götürülməsi" və "elmi möcüzəvilik" arasındakı "uçurum"un şahidi olmuşdur.

Bu problemə müasirlərimiz arasında əhəmiyyətli dərəcədə toxunmuş alim – sudanlı mütəfəkkir mərhum Məhəmməd Əbülqasim Hacc Həmddir. O bu mövzunu maraqlı fəlsəfi formatda tədqiq etmişdir. Bizə gəlincə, ümid edirik ki, problemin əhəmiyyətini Quran metodologiyası əsasında göstərə, onun son dərəcə mühüm mövzu olduğunu diqqətə çatdıra bilmişik.

Bu kitab müxtəlif ixtisas sahiblərinin diqqətini mühüm qnoseoloji mövzuya cəlb etməyi məqsəd güdən

müxtəsər tədqiqat işidir. Qoy onlar öz ixtisasları çərçivəsində mövzunun müxtəlif tərəflərinə toxunsunlar, problemlərini tədqiq etsinlər. Nəticədə mövzu "cilalanacaq", bir metodologiya olaraq müxtəlif bilik problemlərinin həllində öz rolunu oynayacaqdır. Elmin fəlsəfəsi, din tədqiqatları, ictimai-humanitar elm sahələri, ideoloji mövzular – bütün bu sahələrdə yuxarıdakı metodologiyanın imkanlarından istifadə etmək mümkün olacaqdır. Bu səbəbdən biz bacarıqlı mütəxəssisləri bu mühüm mövzunu dərindən tədqiq etməyə çağırırıq. Uğur Allahdandır!

# İstifadə olunmuş ədəbiyyat

1. İbn əl-Əsir, əl-Mübarək ibn Məhəmməd əş-Şeybani. Came əl-üsul fi əhadis ər-Rəsul / tədqiq edib çapa hazırlayan: Mahmud əl-Ərnaut, Riyaz Əbdülhəmid Murad, Məhəmməd Ədib əl-Cadir. Elmi redaktor: Əbdülqadir əl-Ərnaut. Beyrut: "Dar İbn Əsir", 1991.

2. əl-İslahi, Məhəmməd Əcməl Məhəmməd Əyyub. Müfrədat əl-Quran lil-Fərahi və əhəmiyyətuhu fi elm qərib əl-Quran. Mədinə, 2000.

3. İqbal, Məhəmməd. Təcdid əl-fəqəh əd-dini fil-islam / tədqiq edib çapa hazırlayan: Abbas Mahmud əl-Əqqad və Mehdi Əllam. Qahirə, 1968.

4. əl-Əlusi, Mahmud Şükri. Ruh əl-məani fi təfsir əl-Quran əl-əzim və əs-səb əl-məsani / redaktor: Əli Əbdülbari əl-Ətiyyə. Beyrut, 1994.

5. İmam əl-Hərəmeyn, Əbdülməlik ibn Abdullah ibn Yusif əl-Ğiyasi. Ğiyas əl-ümən fi iltiyas əl-zələm. Çap yeri göstərilməyib, 1981.

6. əl-Buxari, Məhəmməd ibn İsmayıl ibn İbrahim. Səhih -əl-Buxari / tədqiq edib çapa hazırlayan: Mustafa Dib, Dəməşq – Beyrut, 1987.

7. əl-Bəğəvi, əl-Hüseyn ibn Məsud ibn Məhəmməd. Təfsir əl-Bəğəvi: məalim ət-tənzil / tədqiq edib çapa hazırlayan: Məhəmməd Abdullah ən-Nəmr və başqaları, Ər-Riyad: "Dar Təyyibə", 1997.

8. əl-Bəqai, Bürhanəddin İbrahim ibn Ömər ibn Həsən. Nuzum əd-dürər fi bəyan tənasüb əl-ayat vəs-

süvər / tədqiq edib çapa hazırlayan: Əbdürrəzzaq Qalib əl-Mehdi, Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1995.

9. əl-Beyhəqi, Əhməd ibn əl-Hüseyn ibn Əli. Əhkam əl-Quran liş-Şafei / toplayıb cəm edən: Məhəmməd ibn Zahid əl-Kövsəri / tədqiq edib çapa hazırlayan: Əbdülqəni Əbdülxaliq, Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1980.

10. ət-Tirmizi, Məhəmməd ibn İsa ibn Surəh. Sünən ət-Tirmizi / tədqiq edib çapa hazırlayan: Əbdülvəhhab Əbdüllətif və başqaları, Beyrut: "Dar əl-fikr", 1983.

11. İbn əl-Cövzi, Əbdürrəhman ibn Əli ibn Məhəmməd. Zad əl-məsir fi elm ət-təfsir / tədqiq edib çapa hazırlayan: Əhməd Şəmsəddin, Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1994.

12. Hacc Həmd, Məhəmməd Əbülqasim. əl-Aləmiyyə əl-islamiyyə əs-saniyə: cədəliyyə əl-qeyb vəl-insan vət-təbiət, Beyrut: "Dar İbn Həzm", 1996.

13. əl-Haris əl-Mühasibi, əl-Haris ibn Əsəd. ər-Riayət li-hüququllah / tədqiq edib çapa hazırlayan: Əbdülhəlim Mahmud, əl-Qahirə: "Dar əl-məarif", 1990.

14. İbn Həzm, Əli ibn Əhməd ibn Səid. əl-Mühəlla. Beyrut: "Dar əl-afaq əl-cədidə" (nəşr olunduğu il göstərilməyib).

15. İbn Hənbəl, Əhməd ibn Məhəmməd ibn Hilal. əl-Müsnəd / tədqiq edib çapa hazırlayan: Əhməd Məhəmməd Şakir, əl-Qahirə: "Dar əl-hədis", 1995.

16. əl-Xətib, Məhəmməd Əccac. əs-Sünnət qəblə ət-tədvin, əl-Qahirə: "Məktəbə Vəhbə", 2004.

17. İbn Xəllad, əl-Həsən ibn Əbdürrəhman ər-Raməhrəmzi. Əmsal əl-hədis / tədqiq edib çapa

hazırlayan:Əbdüləli Əbdülhəmid, Bombey: "əd-Dar əs-sələfiyyə", 1983.

18. İbn Xəldun, Əbdürrəhman ibn Məhəmməd ibn Məhəmməd. əl-Müqəddimə / tədqiq edib çapa hazırlayan: Əli Əbdülvahid Vafi, əl-Qahirə: "Dar nəhzət Misir", 2004.

19. əl-Xuli, Əmin. ət-Təfsir: nəşətuhu və tədərrucuhu və tətəvvürüh, Beyrut: "Dar əl-kitab əl-lübnani", 1985.

20. əd-Darimi, Abdullah ibn Əbdürrəhman ibn əl-Fəzl. Sünən əd-Darimi / tədqiq edib çapa hazırlayan: Fəvaz Əhməd Zümərli və başqaları, Beyrut: "Dar əl-kitab əl-ərəbi", 1997.

21. Dərvəzə, Məhəmməd İzzət. Tarix bəni-israil min əsfarihim və əhval və əxlaq və məvaqif əl-yəhud və fi əsr ən-nəbi və biətuh min əl-Quran əl-Kərim, Beyrut: "əl-Məktəbə əl-əsriyyə", 1969.

22. Dərvəzə, Məhəmməd İzzət. əl-Quran vəl-mübəşşirun, Beyrut-Dəməşq: "əl-Məktəb əl-islami", 1979.

23. əz-Zəhəbi, Məhəmməd Hüseyn. əl-İsrailiyyat fit-təfsir vəl-hədis, əl-Qahirə: "Məktəbə Vəhbə", 1986.

24. ər-Razi, Məhəmməd ibn Əbubəkr ibn Əbdülqadir. Təfsir ər-Razi / tədqiq edib çapa hazırlayan: Məhəmməd Rizvan əd-Dayət. Beyrut: "Dar əl-fikir əl-müasir", 1990.

25. ər-Razi, Məhəmməd ibn Ömər ibn əl-Hüseyn. əl-Məhsul fi elm əl-üsul / tədqiq edib çapa hazırlayan: Taha Cabir əl-Ülvani, Ər-Riyad, 1981.

26. ər-Razi, Məhəmməd ibn Ömər ibn əl-Hüseyn. Məfatih əl-qeyb, əl-Qahirə: "əl-Amirə əş-şərqiyyə", hicri 1324.

27. əz-Zərkəşi, Məhəmməd ibn Bəhadur ibn Abdullah. əl-Burhan fi ülum əl-Quran / tədqiq edib çapa hazırlayan: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut: "Dar əl-mərifət", 1972.

28. əs-Süyuti, Əbdürrəhman ibn Əbubəkr ibn Məhəmməd. əl-İtqan fi ülum əl-Quran / tədqiq edib çapa hazırlayan: Məhəmməd Əbülfəzl İbrahim, Beyrut: "əl-Məktəbə əl-əsriyyə", 1988.

29. əş-Şafei, Məhəmməd ibn İdris ibn əl-Abbas. ər-Risalə / tədqiq edib çapa hazırlayan: Əhməd Məhəmməd Şakir, əl-Qahirə: "əl-Babi əl-Hələbi", hicri 1309.

30. Səbri, Mustafa. Mövqif əl-əql vəl-elm vəl-aləm min rəbb əl-aləmin və ibadih əl-mürsəlin, Beyrut: "Dar ehya ət-turas əl-ərəbi", 1992.

31. ət-Təbatəbai, əs-Seyyid Məhəmməd Hüseyn. əl-Mizan fi təfsir əl-Quran, Qum, hicri 1417.

32. ət-Təbəri, Məhəmməd ibn Cərir ibn Yəzid. Təfsir ət-Təbəri / tədqiq edib çapa hazırlayan: Bəşşar Əvad Məruf və başqaları, Beyrut: "ər-Risalə", 1994.

33. ət-Tusi, Məhəmməd ibn əl-Həsən ibn Əli. ət-Tibyan fi təfsir əl-Quran, Beyrut: "Dar ehya ət-turas əl-ərəbi", nəşr olunduğu il göstərilməyib.

34. ət-Təyalisi, Süleyman ibn Davud ibn Carud. Müsnəd əbi Davud ət-Təyalisi / tədqiq edib çapa hazırlayan: Məhəmməd ibn Əbdülmühsin ət-Türki, əl-Qahirə: "Hicr", 1999.

35. İbn Aşur ət-Tahir, Məhəmməd ət-Tahir ibn Məhəmməd ibn Əbdülqadir. Təfsir ət-təhrir vət-tənvir, Tunis: "Dar ət-tunisiyyə lin-nəşr", 1984 (30 clddə).

36. Əbdülxaliq, Əbdülqəni. Hücciyyət əs-Sünnət, Beyrut: “Dar əl-Quran əl-Kərim”, 1986.

37. İbn əl-Ərəbi, Məhəmməd ibn Əli ibn Məhəmməd. Əhkam əl-Quran / tədqiq edib çapa hazırlayan: Məhəmməd Əbdülqadir Əta, Beyrut: “Dar əl-kutub əl-elmiyyə”, 1996.

38. əl-Ülvani, Taha Cabir. İşkaliyyə ər-riddət, əl-Qahirə: “Dar əş-şüruq əd-düvəliyyə”, nəşr olunduğu il göstərilməyib.

39. Ülvani, Rüqəyyə Taha Cabir. Əsər əl-ürf fi fəhm ən-nusus: qəzaya əl-mərət ənmuzəcan, Dəməşq: “Dar əl-fikir”, 2003.

40. əl-Qəzali, Əbu Hamid ibn Məhəmməd ibn Məhəmməd. Ehya ülum əd-din, Dəməşq: “Dar Qüteybə”, 1992.

41. əl-Farabi, Məhəmməd ibn Məhəmməd ibn Turfan. ət-Tənbih əla səbil əs-səadət / tədqiq edib çapa hazırlayan: Cəfər Ali Yasin Ali Səud, Beyrut: “Dar əl-mənahil”, 1987.

42. Fəyyaz, Məhəmməd Cabir. əl-Əmsal fi əl-Quran əl-Kərim, Bağdad: “Dar əş-şuun əs-səqafiyyə əl-ammə”, 1988.

43 İbn Qəyyim əl-Cövziyyə. Elam əl-müvəqqəin ən rəbb əl-aləmin / tədqiq edib çapa hazırlayan: Məhəmməd əl-Mötəsim Billah əl-Bağdadi, Beyrut: “Dar əl-kitab əl-ərəbi”, 1996.

44. İbn Qəyyim əl-Cövziyyə. Bədai əl-Fəvaid / tədqiq edib çapa hazırlayan: Məhəmməd Münir əd-Diməşqi, Beyrut: “Dar əl-kitab əl-ərəbi”, nəşr olunduğu il göstərilməyib.

45. İbn Kəsir, İsmayıl ibn Ömər əl-Bəsri. Təfsir əl-Quran əl-Əzim / tədqiq edib çapa hazırlayan: Sami ibn Məhəmməd əs-Səlamət, Ər-Riyad: "Dar Təyyibə", 1999.

46. İbn Kəsir, İsmayıl ibn Ömər əl-Bəsri. Fəzail əl-Quran / tədqiq edib çapa hazırlayan: Hicazi ibn Məhəmməd ibn Şərif, əl-Qahirə: "Məktəbə ibn Teymiyyə", 1995.

47. əl-Mavərdi, Əli ibn Məhəmməd ibn Həbib. əl-Əhkam əs-sultaniyyə vəl-vilayat əd-diniyyə / tədqiq edib çapa hazırlayan: Məhəmməd İbrahim əz-Zəğəli və başqaları, Beyrut: "əl-Məktəb əl-islami", 1996.

48. Məhəmməd Əbduh ibn Həsən Xeyrullah. əl-Əmal əl-Kamilə lil-İmam Məhəmməd Əbduh / tədqiq edib çapa hazırlayan: Məhəmməd Əmarə, Beyrut: "əl-Müəssisə əl-ərəbiyyə", 1980.

49. Müslim ibn əl-Həccac ibn Müslim. Səhihi-Müslim bi-şərh ən-Nəvəvi / tədqiq edib çapa hazırlayan: Məhəmməd Fuad Əbdülbaqi, Beyrut: "Dar əl-kutub əl-elmiyyə", 1995.

50. Nasif, Mustafa. Məsuliyyət ət-təvil, əl-Qahirə: "Dar əs-səlam", 2004.

51. Nənaə, Rəmzi. Bidə ət-təfsir fil-mazi vəl-hazir, Ər-Riyad: "Müəssisə əl-ənvar", 1971.

52. əl-Heysəmi, Əli ibn Əbubəkr ibn Süleyman. Məcmə əz-zəvaid və mənbə əl-fəvaid / tədqiq edib çapa hazırlayan: Hüseyn Səlim Əsəd əd-Darani, Dəməşq: "Dar əl-Məmun lit-turas", 1992.

53. İbn əl-Vəzir, Məhəmməd ibn İbrahim ibn Əli. Tərcih əsalib əl-Quran əla əsalib əl-yunan, Beyrut: “Dar əl-kutub əl-elmiyyə”, 1984.

# Mündəricat

**Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3**
**İki "oxu" əmri . . . . . . . . . . . . . . . . . . . . . . . . 5**
*Birinci "oxu" . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11*
*İkinci "oxu". . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12*
*İki "kitab"ı oxuma . . . . . . . . . . . . . . . . . . . . . 13*
*"Oxumaq" insana aid məsələdir . . . . . . . . . . . . . . 14*
*Bəşəriyyətin birliyi . . . . . . . . . . . . . . . . . . . . . 14*
**"Oxuma" səhvləri və mənfi nəticələri . . . . . . . . . . 15**
*Birinci "oxu"ya etinasız münasibət. . . . . . . . . . . . . 16*
*İkinci "oxu"ya etinasız münasibət . . . . . . . . . . . . . 19*
**Quranın bilik metodologiyası . . . . . . . . . . . . . . . 20**
*Müəyyənedicilər və parametrlər . . . . . . . . . . . . . . 22*
**Sünnəni oxuma rolu . . . . . . . . . . . . . . . . . . . . . 23**
**İki "oxu"nun vəhdəti: müqəddəm şərtlər . . . . . . . . . 29**
**Quranı "oxumağ"ın müqəddəm şərtləri. . . . . . . . . . 29**
*1. Oxuyan şəxsin Quranı öz könlünə sirayət etdirməsi . . . . . 30*
*2. Quranın struktur (məzmun) bütövlüyü . . . . . . . . . . . . 30*
*3. Bu və ya digər surənin bir bütöv kimi götürülməsi . . . . . . 30*
*4. Ali dəyərlər şərti . . . . . . . . . . . . . . . . . . . . . 31*
*5. Allah, insan və ram edilmiş kainat arasındakı münasibətlər əsasında Quranın ənginliklərinə dalmaq . . . . . . . . . . . . 33*
*6. Mövzu təsnifi . . . . . . . . . . . . . . . . . . . . . . . 35*
*7. Harmoniya axtarmaq. . . . . . . . . . . . . . . . . . . . . 36*
**Kainatı "oxumağ"ın müqəddəm şərtləri. . . . . . . . . . 38**
*1) Yaradılma. . . . . . . . . . . . . . . . . . . . . . . . . 38*
*a. Yaradılma prinsipinə bələd olmaq. . . . . . . . . . . . . . 40*
*b. Kainatdakı dəqiq nizamı və yaradılmanın . . . . . . . . . . 40*
*məqsədyönlülüyünü üzə çıxarmaq . . . . . . . . . . . . . . . 40*
*2) Qayğı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 45*

*3) Xarici obyektiv reallığa diqqət yetirib düşünmə şərti . . . . 51*
**İki "oxu"nun vəhdətdə götürülməsi necə mümkün ola bilər? . . . . . . . . . . . . . . . . . . . . . . . . 52**
*1. İslamda koqnitiv dünyagörüşünün yenidən formalaşdırılması . . . . . . . . . . . . . . . . . . . . . 57*
*2. Müxtəlif sahələrdə islam metodologiyasının əsalarının yenidən təsis edilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 58*
*3. Qurana münasibət metodunun təsis edilməsi . . . . . . . . . 58*
*4. Sünnəyə münasibət metodikasının təsis edilməsi . . . . . . . 60*
*5. İslam irsinin yenidən öyrənilməsi . . . . . . . . . . . . . . . . 64*
*6. Müasir bəşəri irsə münasibət metodologiyasının müəyyən edilməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 65*
**Vəzifə qurancasına, həm də ümumbəşəridir . . . . . . . 67**
**Quran metodologiyası və bəşəriyyətin taleyi . . . . . . 70**
**Son söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 75**
**İstifadə olunmuş ədəbiyyat . . . . . . . . . . . . . . . . . 77**



*Taha Cabir əl-Ülvani*

Taha Cabir əl-Ülvani 1935-ci ildə İraqda anadan olub.
İbtidai və orta təhsilini İraqda alıb.
1959-cu ildə Əzhəri-Şərifin Şəriət və fiqh fakültəsini bitirib.
1968-ci ildə bu elm ocağının sözügedən fakültəsinin magistratura pilləsində təhsilini başa vurub.
1973-cü ildə Əzhəri-Şərifin doktoranturasını başa vuraraq, "İslam fiqhinin əsasları" (Üsuli-fiqh) ixtisası üzrə doktorluq elmi dərəcəsini alıb.
10 il (1975-1985) ərzində Ər-Riyaddakı İmam Məhəmməd ibn Səud Universitetində İslam hüququ (fiqh) və İslam hüququ əsasları (üsuli-fiqh) ixtisaslarından dərs deyib.
Taha Cabir əl-Ülvani 1981-ci ildə ABŞ-da təsis edilmiş Beynəlxalq İslam Fikri İnstitutunun banilərindən sayılır. Hal-hazırda həmin institutun direktoru və Katiblər Şurasının sədri, Məkkədəki İslam Dünyası Birliyi Təsisat Komitəsinin və Ciddə Beynəlxalq İslam Fiqhi Akademiyasının üzvü, Şimali Amerika Fiqh Şurasının sədri, ABŞ-da fəaliyyət göstərən Kordova Universitetinin rektoru, Ali İslam və İctimai Elmlər Məktəbinin direktorudur.
Bir sıra nəzəri tədqiqatların müəllifi olan alim fiqh və "üsuli-fiqh" sahəsində görkəmli mütəxəssisdir.

İDRAK